QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 227 (5947) **7 dekabr** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonunda ağacəkmə aksiyasında iştirak ediblər




Səh 2

6

**“Azərbaycan Prezidentinin həyata keçirdiyi islahatlar yenilənmədən, müasirləşmədən xəbər verir”**




6

**Firdovsi Əliyev: Əkilən ağacların sayı 650 mini ötüb**



7

**Yeni Azərbaycan Partiyası İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə keçirilən ağacəkmə kampaniyasında fəal iştirak edib**



# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonunda ağacəkmə aksiyasında iştirak ediblər



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 6-da Azərbaycanın filosof şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə mütəfəkkirin anadan olduğu Şamaxı rayonunda keçirilən ağacəkmə aksiyasında iştirak ediblər.***

AZƏRTAC xəbər verir ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən bu aksiya çərçivəsində bir gündə ölkəmizdə 650 min ağac əkilib.

Dövlətimizin başçısına və birinci xanıma aksiya barədə məlumat verən Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev dedi: Mehriban xanımın təşəbbüsünə əsasən bütün respublika üzrə bir gündə 650 min ağacın əkilməsi ilə bağlı böyük bir aksiyaya başlamışıq. Ağacların hamısı yerli tingliklərdə yetişdirilib və respublikanın bütün rayonlarının sifarişləri üzrə paylanılıbdır.

Prezident İlham Əliyev: Şamaxıda neçə min ağac əkilir?

Muxtar Babayev: Şamaxıda 50 min. Bakıda, Naxçıvanda, Sabirabad və Saatlı rayonlarının hər birində də 50 min ağac əkiləcək.

Prezident İlham Əliyev: Şamaxıda neçə yerdə ağac əkilir, ancaq burada?

Muxtar Babayev: Şamaxıda 10-12 yerdə əkilir. Bizim aksiyamızın keçirildiyi ərazi 5 hektardır.

**Ardı Səh. 3**










# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı rayonunda ağacəkmə aksiyasında iştirak ediblər







## Əvvəli-Səh-2

Prezident İlham Əliyev: Hansı ağaclar əkilir?

Muxtar Babayev: Burada əsasən tuya və Eldar şamı. Amma, bütövlükdə 38 növ ağac paylanılıbdır. Əsasən meyvə ağaclarıdır ki, insanlar həm də meyvə götürsünlər.

Prezident İlham Əliyev: Ağaclar bölgələrin iqliminə uyğun olmalıdır.

Muxtar Babayev: Əlbəttə, nəzərə almışıq.

Prezident İlham Əliyev: Abşeronda yəqin ki, zeytun əkilir?

Muxtar Babayev: Abşeronda əsasən zeytundur, badamdır. Burada isə əsasən Eldar şamıdır. Əkilən ağaclar əsasən damcı üsulu ilə suvarılacaq. Bu sistem artıq Sabirabadda, Şamaxıda qurulur. Digərlərində ağaclar hələ ki ənənəvi üsulla suvarılacaq.

Prezident İlham Əliyev: Ancaq qulluq etmək lazımdır. Mən gələndə gördüm ki, yolboyu əkilmiş bəzi ağaclar quruyub.

Muxtar Babayev: Quruyan ağacların hamısı mütləq dəyişdiriləcək, onlara qulluq olunacaq. Ümumiyyətlə, aksiya səhər tezdən başlayıb. Bir neçə gündür hazırlıq işləri görülübdür. Bütün rayonlarda bu işlər çox böyük əhval-ruhiyyə ilə görülür və günün sonuna bizim hesabatımız olacaq.

Prezident İlham Əliyev: Çox yaxşı.

x x x

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ağac əkdilər.

Sonra dövlətimizin başçısı və birinci xanım aksiyada iştirak edən gənclərlə xatirə şəkilləri çəkdirdilər.

Qeyd edək ki, dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə respublikamızın bütün ərazisini əhatə edən ağacəkmə aksiyası çərçivəsində ümumilikdə 83 şəhər və rayonda 38 növdə 650 min ağac əkilib. Aksiya ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyi ağacların əkiləcəyi ərazilərin elektron xəritəsini hazırlayıb. Şəhər və rayon icra hakimiyyətləri tərəfindən ərazilərdə müvafiq hazırlıq işləri görülüb. Əkiləcək ağacların becərilməsində damcılı suvarma sistemindən və suvarma kanallarından istifadə olunacaq.

Şamaxı rayonundakı ağacəkmə aksiyasında 50 minədək ağac əkilib. Şamaxı şəhərinin girişindəki ərazidə keçirilən aksiyada isə 5 min ağac əkilib. Bu ərazinin relyefinə uyğun olaraq burada əsasən tuya və Eldar şamı əkilib. Burada əkilən ağaclar ilə "Nəsimi 650" yazısı formalaşdırılacaq. Aksiyada 300-dək şamaxılı gənc və könüllü ilə yanaşı, IDEA İctimai Birliyinin və Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin üzvləri və könüllüləri də fəal iştirak ediblər.

## Türkiyənin aparıcı KİV-ləri Azərbaycanda həyata keçirilən islahatlara geniş yer ayırıb




Türkiyənin nüfuzlu kütləvi informasiya vasitələri Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə həyata keçirdiyi islahatlar, o cümlədən dövlət başçısının Sərəncamı ilə Milli Məclisin buraxılması və parlamentə növbədənkənar seçkilərin təyin edilməsi ilə bağlı türkdilli oxuculara geniş məlumatlar çatdırır. AZƏRTACxəbər verir ki, Anadolu Agentliyi, UMilliyetF, UHurriyetF, UYeni ŞafaqF, UYeşil İğdırF UYeni akitF və s. qəzetlər islahatlar prosesini geniş işıqlandırıb. Türkiyə KİV-ləri mövzu ilə bağlı analitik yazılar da təqdim edir.



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

7 dekabr 2019-cu il

# Azərbaycanda tarixi, mədəni, dini abidələrin bərpası istiqamətində əhəmiyyətli layihələr icra olunur

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxıda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə tanış olublar*







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 6-da Şamaxı rayonunda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə tanış olublar.***

AZƏRTAC xəbər verir ki, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Son illər Azərbaycanda tarixi, mədəni, dini abidələrin bərpası istiqamətində əhəmiyyətli layihələr icra olunur. Bu layihələr davamlı xarakter almaqla ümumilikdə, tarixi-mədəni irsimizin qorunub-saxlanılmasında, gələcək nəsillərə ötürülməsində çox mühüm rol oynayır. Bu baxımdan Şamaxıda Şahxəndan türbəsinin ətrafında geniş abadlıq işlərinin aparılması da xüsusi əhəmiyyəti ilə seçilir. Yaxın vaxtlarda isə abidənin konservasiyasına başlanacaq.

Milli-mənəvi dəyərlərimizin qorunması və təbliğinə xüsusi önəm verən, ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası, Azərbaycan mədəniyyətinin xaricdə tanıdılması sahəsində böyük addımlar atan Heydər Əliyev Fondu tərəfindən "Nəsimi ili" çərçivəsində dahi şairin qardaşı Şahi Xəndanın dəfn olunduğu Şamaxı rayonundakı Şahxəndan qəbiristanlığındakı türbənin ətrafında aparılan geniş abadlaşdırma işləri zamanı böyük hissəsi torpağın altında qalan türbənin ətrafı qazılaraq torpaq başqa əraziyə daşınıb, abidədə olduğu kimi səkkizguşəli döşəmə salınıb, türbəni ziyarət edənlərin rahatlığı üçün hərtərəfli şərait yaradılıb. Türbənin ətrafında təmizlik və abadlıq işləri avstriyalı bərpaçı-memar Erik Pumerin rəhbərliyi ilə aparılıb.

# Çin KİV-ləri Azərbaycanda həyata keçirilən islahatlar barədə xəbərlər yayıb


阿塞拜疆宪法法院：解散议会提前举行议会选举符合宪法

中国经济网
发布时间：12-05 06:43 | 中经网传媒有限公司

新华社第比利斯12月4日电（记者李铭）巴库消息：阿塞拜疆宪法法院4日做出裁决说，解散阿议会并提前举行议会选举符合阿塞拜疆宪法。

据阿塞拜疆通讯社报道，在当天举行的宪法法院全体会议上，经过讨论，宪法法院院长法尔哈德·阿卜杜拉耶夫宣布，解散议会并提前举行议会选举符合阿塞拜疆宪法。

根据阿塞拜疆宪法，宪法法院的这一裁决为最终裁决，即时生效。

阿塞拜疆国民议会2日通过决议，呼吁总统阿利耶夫尽早解散议会并提前举行议会选举。阿利耶夫同日提请宪法法院就总统解散议会并提前举行议会选举是否符合宪法做出裁决。

阿塞拜疆宪法规定，阿议会实行一院制，是阿最高立法机关，称为"国民议会"，由125名议员组成，任期5年。上届国民议会于2015年11月选举产生。

更多资讯或合作欢迎关注中国经济网官方微信（名称：中国经济网，id：ourcecn）

来源：新华网

相关搜索

作者最新文章

牧区改革领头雁——尼玛顿珠 | 榜样·西藏

家是玉麦 国是中国——卓嘎央宗姐妹 | 榜样·西藏

耿耿忠心照雪山——孔繁森 | 榜样·西藏

相关文章

官宣！2日，中国正式对美国宣布制裁，这些美国机构一个没...

Çinin nüfuzlu kütləvi informasiya vasitələri Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə həyata keçirdiyi islahatlar, o cümlədən Milli Məclisin buraxılması və parlamentə növbədənkənar seçkilərin təyin edilməsi prosesini diqqətdə saxlayır.

AZƏRTACaxəbər verir ki, milli xəbər agentliyi Sinxua, 100 milyondan çox çap və onlayn abunəçisi olan UChina DailyF qəzeti, Çin Beynəlxalq Radisou və digər KİV-lər Azərbaycanda parlamentin buraxılması və növbədənkənar seçkilərin elan olunması ilə bağlı gedən proseslәri, o cümlədən Milli Məclisin növbədənkənar seçkilərin təyin edilməsi haqqında Prezidentə müraciəti, Konstitusiya Məhkəməsinin həmin qərarın Konstitusiyaya uyğunluğu barədə qərar qəbul etməsini, Prezident İlham Əliyevin Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncamı barədə çin, ingilis və digər dillərdə xəbərlər yayıblar.

# Ulu Öndər Heydər Əliyevin parlaq xatirəsi bütün vətəndaşlarımız üçün əzizdir



***Azərbaycan xalqının Dahi Rəhbəri, xalqımızın Böyük Oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 16-cı ildönümü yaxınlaşır. Əsrarəngiz dühası ilə uca zirvələri fəth etmiş Ulu Öndərimizin parlaq xatirəsi bütün vətəndaşlarımız üçün əzizdir. Bunun əsas cəbəbi odur ki, xalqımızın əldə etdiyi uğurlar təkrarsız insan olan Ümummilli Liderimizin adı ilə bağlıdır. Xalqımız son dövrdə nə əldə etmişsə, irəliyə doğru inkişafda nə qazanmışsa, bunun bünövrəsi hələ ötən əsrin 70-80-ci illərində Dahi Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zaman qoyulmuşdur. 1993-cü ildə Ulu Öndərimizin müəyyən etdiyi ümumi strategiya respublikamız üçün uzunmüddətli tarixi quruculuq rolunu oynadı. Qədirbilən xalqımız bu fədakarlığın canlı şahididir, uğurlarımızı, dünya miqyasında əldə olunmuş nailiyyətləri Heydər Əliyev Fenomeni olmadan təsəvvür etmək mümkün deyildir.***

### Məhz Onun gərgin fəaliyyəti sayəsində ölkəmiz yüksək mənəvi dəyərlərə malik tolerant və dünyəvi bir məmləkətə çevrildi

Ulu Öndər Heydər Əliyev çevik, ədalətli və prinsipial siyasət sahibi idi. Onun ən başlıca keyfiyyəti xalqımıza xas olan milli-mənəvi dəyərlərə ürəkdən bağlılığı, milli ideyanı yaşadıb inkişaf etdirmək üçün bütün ömrünü millətin mədəni-mənəvi intibahına həsr etməsi idi. Tarix boyu alimlər, ədəbiyyatçılar, filosoflar öz xalqının mədəni tərəqqisi üçün çox iş görüblər. Amma dahi rəhbərimizin Azərbaycan xalqı üçün gördüyü işi heç kəs görə bilməyib. Məhz Onun gərgin fəaliyyəti sayəsində ölkəmiz yüksək mənəvi dəyərlərə malik tolerant və dünyəvi bir məmləkətə çevrildi.

Ulu Öndərimiz Heydər Əliyev bəşər tarixində siyasət Olimpinə yüksələn nəhəng xadimlərdən biridir və Onun həyat yolu doğma vətənə sədaqət nümunəsidir. Dünyanın ən tanınmış siyasətçiləri bu böyük zəka sahibinin fəaliyyətini, Onun dəyərli irsini örnək kimi qəbul etmişdir, çünki bu siyasətçilər hələ sovetlər dövründən Heydər Əliyevin nələrə qadir olduğunun şahidi idilər. Təkrarsız təşkilatçılıq qabiliyyətinə malik olan Ulu Öndərimiz o zamankı imperiyanın yeritdiyi siyasətin mahiyyətinə yaxşı bələd idi. Moskvada işləyərkən, bu siyasəti milli mənafelərə uyğunlaşdırmağı bacarırdı və elə onda respublikamızın gələcək siyasi müstəqilliyi üçün təməl hazırlayırdı. Müxtəlif sahələrdə işləyəcək kadr potensialını yaratmaq Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən biri olmuşdur. O zamanlar ölkəmizdə neçə-neçə böyük zavodlar və fabriklər, sosial-mədəni yönümlü obyektlər fəaliyyət göstərirdi. Bu müdrik insan ötən əsrin 70-ci illərində qabağı görmüş, öz xalqına əsl atalıq qayğısı göstərmişdir. Azərbaycan, qısa zamanda, keçmiş İttifaqın ən qabaqcıl respublikasına çevrildi.

### Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ana yurdumuzun üzünə günəş doğdu

Məlum olduğu kimi, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıtdığı dövrdə Azərbaycan dərin böhran içərisində çapalayırdı, elə problemlər yaranmışdı ki, bundan çıxış yolu tapmaq müşkül görünürdü. Həyat iflic vəziyyətə düşmüşdü və işsizlik əhalini acınacaqlı vəziyyətə gətirib çıxarmışdı. Bu vəziyyətin qarşısını almaq üçün respublikada elə bir səriştəli qüvvə yox idi, idarəçilik sistemini bütünlüklə iflic haldan xilas etməkdən ötrü güclü dövlət xadiminin yeri görünürdü. Yaxşı ki, xalq o vaxt Naxçıvanda yaşayan Ulu Öndər Heydər Əliyevi təkidlə Bakıya çağırdı. Ulu Öndərimizin xalqın yekdil dəvəti ilə Bakıya qayıdışı Azərbaycanda əsaslı dönüşün təməlini qoydu. Beləliklə, böyük Yaradan Heydər Əliyevi taleyimizin ən çətin məqamında xalqımıza bir xilaskar kimi göndərdi və Onun gəlişi ilə ana yurdumuzun üzünə günəş doğdu. Labüd vətəndaş müharibəsinin və Azərbaycanı parçalamaq istəyən separatçıların qarşısı, məhz Ümummilli Liderimizin qətiyyətli tədbirləri nəticəsində alındı. Həmin tarixi andan başlayaraq xalqda öz gücünə, müstəqilliyinin dönməzliyinə inam artdı. Dahi Öndər Heydər Əliyevin ətrafında sıx birləşən xalqımız ruh yüksəkliyi ilə ölkənin problemlərini həll etməyə, dövlət və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinin fəal iştirakçılarına çevrilməyə başladı. Anarxiya və xaos geniş quruculuq mərhələsi ilə əvəz olundu. Elə o vaxt dövlətçilik və müstəqilliyimiz naminə çox cəsarətli addımlar atıldı, eyni zamanda Avropaya inteqrasiya prosesi sürətləndi.

Dahi Öndər Heydər Əliyevi özündən əvvəlki rəhbərlərdən fərqləndirən əsas cəhətlərdən biri bu idi ki, O, fəaliyyətinin ilk çağlarından insanlarla mövqeyindən, təmsil etdiyi təbəqədən asılı olmayaraq, yaxın təmas qura bilirdi. Bu dahi şəxsiyyət xalqın böyük oğlu idi, ondan bir an olsun belə ayrı yaşaya bilmirdi. Onun məşhur kəlamı dillər əzbəridir: "MƏN FƏXR EDİRƏM Kİ, AZƏRBAYCANLIYAM!" Bu, həm də o demək idi ki, Heydər Əliyevin ölkədə olan bütün proseslərdən, baş verən bütün hadisələrdən xəbəri vardı.

### Onun irsi indi xalqımıza düzgün yol göstərir, bütün qələbələrimizin rəhninə çevrilmişdir

Ümummilli Liderimiz Azərbaycan xalqının qədim tarixinə, zəngin mədəniyyətinə arxalanan, onu dünyada yetərincə təbliğ edən böyük bir intellekt sahibi idi, özündən sonra nəhəng bir siyasi və mənəvi irs qoyub getmişdir. Bu irsin əsas mahiyyətini və məzmununu, böyük bir missiyanı Ulu Öndərin öz sözləri ilə belə xarakterizə etmək olar: "Belə bir yüksək və məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram". Buna görədir ki, Onun irsi indi xalqımıza düzgün yol göstərir, çünki bütün qələbələrimizin rəhninə çevrilmişdir. Bunu tarix sübut etmişdir, dahi rəhbərimizin arxalandığı və güvəndiyi yenilməz qüvvə keçilməz maneələri dəf edərək, xarüqələr yaradıb.

Ulu Öndər Heydər Əliyevin fəaliyyəti o qədər hərtərəfli və genişdir ki, onları təfsilatı ilə söyləmək çətindir. Qısaca olaraq bunların bəzilərini qeyd etmək olar. Məsələn, 1994-cü ilin sentyabrında Xəzərin Azərbaycan sektoruna məxsus karbohidrogen ehtiyatlarının xarici neft şirkətləri ilə birgə mənimsənilməsinə dair "Əsrin müqaviləsi" adlı nəhəng müqavilə imzalandı. Bu, Ulu Öndərin iqtisadi inkişaf konsepsiyasının əsas elementi, Azərbaycan xalqının gələcəyinin təməl prinsiplərindən biri oldu. Neft ixracı sayəsində Azərbaycana daxil olan milyardlarla dollar həcmində mənfəət hazırda xalqın daha yaxşı yaşamasına yönəlmişdir.

### Ulu Öndərimiz bu gün cismən sıralarımızda olmasa da, pak və xeyirxah əməlləri, misilsiz xidmətləri gözümüz önündədir, hamımıza bəllidir

Xarici dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla münasibətdə çevik, tarazlaşdırılmış siyasət yürüdən Ulu Öndər Heydər Əliyev Azərbaycan həqiqətlərini, dövlətimizin mövqeyini dünyaya çatdırmağa və bununla da, Azərbaycana diqqət və marağın qat-qat artırılmasına nail oldu. 1994-cü ildə Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramına qoşuldu. 2001-ci ildə Avropa Şurasına üzv oldu. Dövlət başçımızın səsi BMT-nin və digər nüfuzlu təşkilatların tribunasından eşidildi. Aparılan aqrar islahatlar, demokratik və hüquqi dövlət quruculuğu sahəsində, vətəndaşların sosial durumunun yaxşılaşdırılması istiqamətində qəbul edilən proqramlar, yoxsulluğun aradan qaldırılması yönündə görülən tədbirlər, misli görünməmiş işlər idi. Ulu Öndərimiz bu gün cismən sıralarımızda olmasa da, pak və xeyirxah əməlləri, misilsiz xidmətləri gözümüz önündədir, hamımıza bəllidir.

Ona görə də, hazırda böyük quruculuq tədbirlərini həyata keçirərkən, ölkəmizdə bərqərar olmuş əmin-amanlıq və sabitliyə, yüksək qayğıya sosial-iqtisadi inkişaf konsepsiyasına, səhiyyənin, təhsilin, mədəniyyətin tərəqqisinə, insanların həyat səviyyəsinin yüksəldilməsinə görə Ulu Öndər Heydər Əliyev dühasına minnətdarlığımızı dönə-dönə qeyd edirik.

### Bizim borcumuz Ulu Öndər Heydər Əliyev ideyalarını bundan sonra da yaşatmaq, ləyaqətlə inkişaf etdirməkdən ibarət olmalıdır

Hazırda Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi qətiyyətli, müdrik siyasi kurs Prezident İlham Əliyevin dövlətçilik bacarığı və əvəzedilməz rəhbərlik qabiliyyəti sayəsində daha da inkişaf edir, respublikamızın müstəqilliyi və suverenliyi daha da möhkəmlənir, ölkəmiz gündən-günə varlanır və vətəndaşlarımız daha firavan yaşayırlar.

Cənubi Qafqazın ən nüfuzlu ölkəsinə çevrilmiş Azərbaycan bütün sahələrdə inkişaf edir. İqtisadiyyatı möhkəmlənir, respublikanın investisiya cəlbediciliyi artır və sahibkarlıq inkişaf edir. Bu isə ölkəmizin həyatında daha yeni bir mərhələdir, davamlı və sabit inkişafımızın göstəricisidir. Deməli, regional güc mərkəzi kimi beynəlxalq məkanda aparıcı məkana çevrilən Azərbaycan postsovet respublikaları arasında, keçid dövrünü başa vuran ilk dövlət olduğu kimi, inkişaf etmiş ölkələrin cərgəsinə də ilk qoşulan ölkə olacaq. Deməli, Ulu Öndər Heydər Əliyevin vəsiyyətləri öz bəhrəsini vermişdir, Onun arzuları çiçəklənmiş, növbəti möhtəşəm vəzifələrin yerinə yetirilməsi yolunda nurlu mayaka çevrilmişdir. Bizim borcumuz Heydər Əliyev ideyalarını bundan sonra da yaşatmaq, ləyaqətlə inkişaf etdirməkdən ibarət olmalıdır. Nə qədər ki, Azərbaycan xalqı var, Ulu Öndərimizin parlaq xatirəsi daim qəlbimizdə yaşayacaq, onun mübariz əməlləri yüz illər bundan sonra da nəsillərə örnək olacaqdır.

**RƏFİQƏ KAMALQIZI**

# Əli Əhmədov: "Azərbaycan Prezidentinin həyata keçirdiyi islahatlar yenilənmədən, müasirləşmədən xəbər verir"

***Azərbaycanda həyata keçirilən möhtəşəm layihələr hər şeydən əvvəl ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılmasına yönəlib. Prezident İlham Əliyev hər zaman Azərbaycan vətəndaşının yanındadır. Hər bir Azərbaycan vətəndaşı Prezidentin diqqət və qayğısı ilə əhatə olunub və şübhəsiz ki, hər bir vətəndaş da öz Prezidentinə inanır və arxalanır.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov deyib. Baş Nazirin müavini bildirib ki, Azərbaycan Prezidenti hər zaman öz humanistliyi, xeyirxahlığı, nəcibliyi ilə dövlət məmurlarına nümu-




nə göstərir, öz əməlləri ilə məmurlara sübut edir ki, onların əsas vəzifəsi vətəndaşlara xidmət göstərməkdir.

Əli Əhmədov qeyd edib ki, ölkədə həyata keçirilən islahatlarda sosialyönümlülük özünü daha qabarıq şəkildə göstərir. O, təkcə bu il vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması üçün minimum əməkhaqqının, pensiyaların iki dəfəyə qədər artırılmasını diqqətə çatdırıb. Vurğulayıb ki, ölkənin iqtisadi gücü artdıqca vətəndaşların rifah halının yüksəldilməsi üçün ayrılan vəsaitin də məbləği artırılacaq. Qarşıya qoyulan əsas məqsəd hər bir vətəndaşın respublikamızın potensial imkanlarından faydalanmasını təmin etmək, onun güzəranını yaxşılaşdırmaqdır.

YAP sədrinin müavini Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin keçirilməsinə də münasibət bildirib: "Hesab edirəm ki, ölkə vətəndaşları Milli Məclisin buraxılması ilə bağlı YAP-ın təşəbbüsünü müsbət qarşılayırlar. Azərbaycan Prezidentinin həyata keçirdiyi genişmiqyaslı islahatlar strategiyası bütövlükdə Azərbaycanda yenilənmədən, müasirləşmədən xəbər verir. Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərdə fəal iştirak edəcək. Ümid edirik ki, vətəndaşlar arasında böyük nüfuza malik olan lider partiyamızın üzvləri say çoxluğu ilə yeni parlamentdə üstünlük təşkil edəcəklər".

# Mübariz Qurbanlı: İnsan müasir zamanda təbiəti qorumaq üçün böyük səy göstərməlidir

***Ətraf mühitin qorunması məqsədilə keçirilən bütün tədbirləri mütərəqqi hadisə hesab edirəm. Bu sözləri AZƏRTAC-a müsahibəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Bakının Qaradağ rayonunun Müşfiqabad qəsəbəsinin ərazisində keçirilən ekoloji aksiya zamanı deyib.***



"Qlobal miqyasda ətraf mühitin qorunması çox ciddi məsələdir. Birinci vitse-prezident Mehriban Əliyevanın bu təşəbbüsü ətraf mühitin qorunması, yaşıllıq zonalarının salınması baxımından çox mühüm bir işdir. Bu aksiya dahi şairimiz İmadəddin Nəsiminin 650 illiyinə həsr olunub. İnsan müasir zamanda təbiəti qorumaq üçün böyük səy göstərməlidir. Hər bir kəs ən azından bir ağac əkməlidir. Əgər belə etsək rayonlarımız yaşıllaşar, ətraf mühit sağlamlaşar", - deyə M.Qurbanlı bildirib.



## "Ağacların əkilməsi ilə yanaşı, onlara qulluq edilməsi də diqqət mərkəzindədir"

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bir gündə 650 min ağacın əkilməsi ölkənin ekologiyası üçün gözəl layihələrdən biridir. Biz də böyük məmnuniyyətlə bu təşəbbüsə qoşuluruq.

BunuaAZƏRTAC-a müsahibəsində Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini Siyavuş Novruzov deyib. O bildirib ki, 70-dən artıq rayonda 300 nəfərdən az olmayaraq YAP üzvü bu kampaniyada iştirak edir. "Ağacların əkilməsi ilə yanaşı, onlara qulluq edilməsi də diqqət mərkəzindədir. YAP gənclərindən ibarət qruplar yaradılıb. Bu qruplar tərəfindən ilboyu monitorinq aparılacaq. Ağaclara qulluq ediləcək, quruyan ağacların yerində yeniləri əkiləcək", - deyə Siyavuş Novruzov qeyd edib.

## Bahar Muradova: "Bu təşəbbüs torpağımızın yaşıllaşmasına, ekologiyanın sağlamlaşmasına çox böyük töhfədir"

Dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Birinci vitse-prezident Mehriban Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsünə Yeni Azərbaycan Partiyası da qoşulub. Bu, olduqca önəmli təşəbbüsdür, torpağımızın yaşıllaşmasına, ekologiyanın sağlamlaşmasına çox böyük töhfədir.



AZƏRTACxəbər verir ki, bu fikirləri Milli Məclis Sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova jurnalistlərə bildirib. İnsanların bu təşəbbüsə kütləvi şəkildə qoşulmasını vətəndaş birliyinə, dövlətə, xalqa, onun maraqlarına olan münasibət kimi dəyərləndirən Bahar Muradova deyib: "Hesab edirəm ki, bu əsasda yaranan münasibətlər, bu əsasda formalaşan sabitlik, vətəndaş birliyi Azərbaycan dövlətinin maraqlarına çox vacib bir töhfədir və özlüyündə bu, həm də Yeni Azərbaycan Partiyasının bir dəstəyidir. YAP yarandığı vaxtdan bu günə kimi hər zaman belə aksiyaların təşəbbüskarı və iştirakçısı kimi çıxış edib. Bu gün də hamımız bir yerdəyik, çox gözəl əhval-ruhiyyəmiz var. Hesab edirəm ki, bu genişmiqyaslı kampaniyada fəal iştirak edəcəyik. Ölkəmizə, xalqımıza "Uğurlu olsun!" deyirik".

# Firdovsi Əliyev: Əkilən ağacların sayı 650 mini ötüb

Bugünkü ağacəkmə aksiyası dünyada bənzəri olmayan bir tədbirdir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü həm indiki, həm də gələcək nəsillərə xidmət edir. Bizim hədəfimiz 650 min ağac idi. Lakin məlumatlar daxil olduqca görürük ki, əkilən ağacların sayı 650 mini də keçib.



AZƏRTAC xəbər verir ki, bu sözləri Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyev dekabrın 6-da keçirilən mətbuat konfransında deyib.

Nazir müavininin sözlərinə görə, təkcə SOCAR kollektivi aksiya çərçivəsində 100 min ağac əkib: "Onlar gəmi vasitəsilə 12 min ağacı Çilov adasına göndərib və orada əkiblər. Aksiyada 200-dən çox dövlət qurumu və özəl təşkilat iştirak edib. Əkilən ağacların hamısı nazirliyin tinglik təsərrüfatlarında yetişdirilib. Ümumilikdə, aksiya zamanı 37 növ ağac əkilib. Demək olar ki, tədbirimiz yüksək əhval-ruhiyyə ilə yekunlaşıb".

# Mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar Səbail rayonunda ağacəkmə aksiyası keçirilib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü ilə, ölkəmizin bütün şəhər və rayonlarında olduğu kimi, Səbail rayonunda da Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilmiş və mədəni konsert proqramı təşkil olunub. Aksiya çərçivəsində Səbail rayonunda, ümumilikdə, 4800 müxtəlif növ ağac əkilmişdir, o cümlədən, Abbasqulu Abbaszadə küçəsində bir hektar sahədə mindən artıq ağac əkilib. Tədbirdə Səbail rayon icra hakimiyyətinin başçısı Vuqar Zeynalov, mədəniyyət xadimləri, rayon ictimaiyyəti, RİH başçısının müavinləri, RİHBA-nın məsul əməkdaşları, təsərrüfat xidmətləri, idarə və təşkilatların nümayəndələri, YAP fəalları və gənclər iştirak edib.

Tədbirdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşının dayandığını bildirmişlər. Azərbaycan vətəndaşlarının sosial məsələlərinin həllini, onların sağlamlığının qorunmasını prioritet sahələrdən biri kimi müəyyənləşdirib. Bu istiqamətdə indiyədək çox sayda layihələr icra olunub. Bu layihələr sırasında əhalinin sağlam ekoloji mühitdə yaşaması məsələsinə də xüsusi diqqət yetirilir. Ölkəmizdə həyata keçirilən ekoloji siyasət nəticəsində, yeni yaşıllıqların salınması, mövcudlarının qorunması ilə yanaşı, eyni zamanda, əvvəllər heç bir yaşıllıq olmayan sahələrdə də ağacəkmə aksiyalarının keçirilməsi Azərbaycanda ekoloji durumun yaxşılaşdırılmasına mühüm töhfələr verir, yaşıllıq zonalarının sahəsini artırır. Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Ölkəmizdə yeni yaşıllıqların salınmasında və mövcud yaşıllıq sahələrinin qorunmasında fondun töhfəsi olduqca böyükdür. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədi ilə icra olunan layihələr də mühüm əhəmiyyət kəsb edir.

***R.KAMALQIZI***

# Yeni Azərbaycan Partiyası İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə keçirilən ağacəkmə kampaniyasında fəal iştirak edib





***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə ölkə üzrə bir gündə 650 min ağac əkilir. Yeni Azərbaycan Partiyası Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu təşəbbüsünə qoşularaq dekabrın 6-da ölkə üzrə keçirilən ağacəkmə kampaniyasında fəal iştirak edib.***

Yeni Azərbaycan Partiyasının rəhbərliyi və fəalları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Şamaxı yolunda yerləşən Pirəkəşkül ərazisində keçirdiyi bu kampaniya çərçivəsində minlərlə ağac əkmişlər.

Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov bu günü Azərbaycanın ekologiya tarixində xüsusi gün adlandıraraq qeyd edib ki, Nəsiminin 650 illik yubileyi münasibətilə Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə bir gündə 650 min ağac əkiləcək.

Əli Əhmədovun sözlərinə görə, vətəndaşlar Birinci vitse-prezident Mehriban Əliyevanın bu təşəbbüsünü yüksək əhval-ruhiyyə ilə qarşılayırlar: "Azərbaycanın bir çox kənd və qəsəbələrində insanlar böyük coşqu ilə yaşıllıq zolağının salınmasına, ağacların əkilməsinə dəstək verərək kampaniyaya qoşulublar. Əkilən ağaclar Azərbaycanın ekoloji şəraitini yaxşılaşdıracaq".

Əli Əhmədov qeyd edib ki, bir neçə ildən sonra bu ağaclar böyüyəcək və yaşıllıq zolaqları daha da artacaq. Beləliklə, Azərbaycan təbiətinin yaxşılaşmasına böyük köməklik göstərmiş olacaq: "Bütövlükdə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi altında böyük quruculuq, abadlıq işləri həyata keçirilir. Azərbaycan müasirləşir, kəndlərimiz, qəsəbələrimiz gözəlləşir. Əhalinin yaşaması üçün rahat, əlverişli şərait yaradılır. Vacib komponentlərdən biri də insanların yaxşı ekoloji mühitdə, təmiz hava şəraitində yaşamasının təmin edilməsidir. Bu ağacların əkilməsi həmin məqsədə xidmət göstərir. YAP kampaniyanı ürəkdən dəstəkləyən qurumlardan biridir. YAP-ın çoxlu üzvləri müxtəlif rayonlarda bu kampaniyada iştirak edirlər. Güman edirəm ki, ən fəal iştirak edən YAP-ın üzvləri olacaq. YAP və Ekologiya və Təbii Sərvətlər Nazirliyi digər layihədə həyata keçirir. Bu, əkilən ağaclara qulluq edilməsinin monitorinqinin keçirilməsi ilə bağlıdır".









# Yeni Azərbaycan Partiyası "Xalq üçün" devizi ilə seçki təbliğatına start verdi

## Masallı






23 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasına yüksək ab-hava ilə başlayan Yeni Azərbaycan Partiyasının Masallı rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində növbəti görüş YAP Masallı rayon təşkilatı aparatında YAP tərəfindən irəli sürülmüş qadın namizədlərlə keçirilib. Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyasının Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev rayon təşkilatı tərəfindən görülən işlər barədə məlumat verib, bələdiyyə seçkilərinin əhəmiyyətindən danışıb, eyni zamanda, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, qadınların idarəetmə orqanlarında və seçki proseslərindəki iştirakının durmadan artmaqda olduğunu qeyd edib. S.Əliyev bələdiyyə seçkilərində qadın namizədlərin say çoxluğunun iş prosesinə müsbət təsir göstərəcəyinə əminliyini bildirib və bütün namizədlərə uğurlar arzulayıb. YAP Masallı rayon təşkilatı qadınlar şurasının sədrinin müavini Əntiqə Tağıyeva çıxış edərək, respublikamızda dövlət-qadın siyasəti haqqında danışıb, Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə əsasını qoyduğu ənənələrin ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini, bunun nəticəsi olaraq, dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində də qadın namizədlərin sayının kifayət qədər çox olduğunu deyib. O, eyni zamanda, YAP-ın namizədlərinin rayon təşkilatının hər bir qadın üzvü tərəfindən dəstəklənəcəyini qeyd edib. Tədbirdə iştirak edən Mehriban Əzizova, Şəhla Rufullayeva və başqaları çıxış edərək, Azərbaycanın və regionun ən güclü siyasi partiyası olan YAP-ın yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazandığını vurğulayıb, xalqımızın bu seçkilərdə də partiyamızın namizədlərini dəstəkləyəcəyinə əmin olduqlarını qeyd ediblər.

## Qaradağ





Yeni Azərbaycan Partiyasının Qaradağ rayon təşkilatında Lökbatan qəsəbəsinin bələdiyyə üzvlüyünə YAP tərəfindən irəli sürülmüş namizədlərlə görüş keçirilib. Tədbiri giriş sözü ilə açan millət vəkili, YAP-ın Siyasi Şurasının üzvü, partiyanın Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov rayon təşkilatı tərəfindən görülən işlər barədə məlumat verib və qarşıdan gələn bələdiyyə seçkilərinin əhəmiyyətindən danışıb. Qeyd edib ki, bu gün seçkilərlə bağlı partiyamızın qarşısında duran məsələlərdən biri iqtidar partiyası olaraq, seçkilərin ədalətli və şəffar keçirilməsinə nail olmaq və seçicilərin yekdil səsini qazanmaqla, onların arzu və istəklərini həyata keçirməkdir. Bu günə qədər keçirilən bütün seçkilərdə partiyamızın namizədlərinin xalq üçün, Azərbaycanın rifahı və quruculuğu naminə fəaliyyət göstərməsi seçicilər tərəfindən yüksək səs çoxluğu ilə qarşılanıb. Növbəti seçkilərin də yekdilliklə keçiriləcəyinə və namizədlərimizin dəstəklənəcəyinə əminik. Çünki YAP xalqımızın həyatında müstəsna xidmətləri ilə seçilən partiyadır. Sonda çıxış edən rayon seçiciləri xalqın etimadını əməli işi ilə doğruldan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

## Xaçmaz



YAP Xaçmaz rayon təşkilatı 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası davam edir. YAP tərəfindən namizədliyi irəli sürülən namizədlərlə növbəti görüş Niyazoba kənd seçiciləri ilə olub. Görüşü YAP Xaçmaz rayon təşkilatının sədr müavini, Seçki Qərargahının üzvü Abasyar Heydərov açaraq, bələdiyyələr və bələdiyyə seçkiləri haqqında geniş məlumat verib. Bildirib ki, həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, ölkəmizdə genişmiqyaslı inkişafa nail olunub. O, gələcək hədəfləri haqqında seçiciləri məlumatlandırdı. Tədbirdə qərargah üzvü Sürayə Əmirova, seçicilərdən Əmirxan Sərdarov, bələdiyyə üzvlüyünə namizəd Gülağa Əhmədov və başqaları çıxış edərək, bələdiyyə seçkilərində daha fəal iştirak edəcəklərini bildirməklə, partiyanın qələbəsini təmin etməyə çalışacaqlarını qeyd ediblər.



## Astara






Dünən bələdiyyə seçkiləri ilə əlaqədar olaraq, YAP Astara rayon təşkilatı növbəti görüşünü Pensər və Kakalos kəndlərində keçirib. Görüşü Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatının sədri Firudin Əhmədov açaraq, bələdiyyə seçkilərindən, bu seçkilərlə əlaqədar indiyə qədər görülmüş işlərdən, dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışmışdır. F.Əhmədov həyata keçirilən irimiqyaslı layihələrin, məhz Yeni Azəbaycan Partiyasının və onun Sədri, ölkə Prezidenti İlham Əliyevin adıyla bağlı olduğunu və bütün bunların hər bir vətəndaşın gözü qarşısında baş verdiyini seçicilərin diqqətinə çatdırıb. YAP tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən yekdil dəstək alacağına inandığını bildirərək, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olmağa çağırıb. Görüşdə çıxış edən rayon ağsaqqallarından Gülağa Rzayev, Ələsgər Əliyev bildirdilər ki, Astara rayonunda rayon sakinlərinin YAP-a, partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevə inamı çox güclü-

# Yeni Azərbaycan Partiyası "Xalq üçün" devizi ilə seçki təbliğatına start verdi

### Masallı

23 dekabr 2019-cu il tarixində keçiriləcək bələdiyyə seçkilərinin təbliğat-təşviqat kampaniyasına yüksək ab-hava ilə başlayan Yeni Azərbaycan Partiyasının Masallı rayon təşkilatı Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində növbəti görüş YAP Masallı rayon təşkilatı aparatında YAP tərəfindən irəli sürülmüş qadın namizədlərlə keçirilib. Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyasının Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev rayon təşkilatı tərəfindən görülən işlər barədə məlumat verib, bələdiyyə seçkilərinin əhəmiyyətindən danışıb, eyni zamanda, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən






uğurlu siyasətin nəticəsi olaraq, qadınların idarəetmə orqanlarında və seçki proseslərindəki iştirakının durmadan artmaqda olduğunu qeyd edib. S.Əliyev bələdiyyə seçkilərində qadın namizədlərin say çoxluğunun iş prosesinə müsbət təsir göstərəcəyinə əminliyini bildirib və bütün namizədlərə uğurlar arzulayıb. YAP Masallı rayon təşkilatı qadınlar şurasının sədrinin müavini Əntiqə Tağıyeva çıxış edərək, respublikamızda dövlət-qadın siyasəti haqqında danışıb, Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə əsasını qoyduğu ənənələrin ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini, bunun nəticəsi olaraq, dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində də qadın namizədlərin sayının kifayət qədər çox olduğunu deyib. O, eyni zamanda, YAP-ın namizədlərinin rayon təşkilatının hər bir qadın üzvü tərəfindən dəstəklənəcəyini qeyd edib. Tədbirdə iştirak edən Mehriban Əzizova, Şəhla Rufullayeva və başqaları çıxış edərək, Azərbaycanın və regionun ən güclü siyasi partiyası olan YAP-ın yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazandığını vurğulayıb, xalqımızın bu seçkilərdə də partiyamızın namizədlərini dəstəkləyəcəyinə əmin olduqlarını qeyd ediblər.

### Qaradağ

Yeni Azərbaycan Partiyasının Qaradağ rayon təşkilatında Lökbatan qəsəbəsinin bələdiyyə üzvlüyünə YAP tərəfindən irəli sürülmüş namizədlərlə görüş keçirilib. Tədbiri giriş sözü ilə açan millət vəkili, YAP-ın Siyasi Şurasının üzvü, partiyanın Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov rayon təşkilatı tərəfindən görülən işlər barədə məlumat verib və qarşıdan gələn bələdiyyə seçkilərinin əhəmiyyətindən danışıb. Qeyd edib ki, bu gün seçkilərlə bağlı partiyamızın






qarşısında duran məsələlərdən biri iqtidar partiyası olaraq, seçkilərin ədalətli və şəffaf keçirilməsinə nail olmaq və seçicilərin yekdil səsini qazanmaqla, onların arzu və istəklərini həyata keçirməkdir. Bu günə qədər keçirilən bütün seçkilərdə partiyamızın namizədlərinin xalq üçün, Azərbaycanın rifahı və quruculuğu naminə fəaliyyət göstərməsi seçicilər tərəfindən yüksək səs çoxluğu ilə qarşılanıb. Növbəti seçkilərin də yekdilliklə keçiriləcəyinə və namizədlərimizin dəstəklənəcəyinə əminik. Çünki YAP xalqımızın həyatında müstəsna xidmətləri ilə seçilən partiyadır. Sonda çıxış edən rayon seçiciləri xalqın etimadını əməli işi ilə doğruldan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

### Xaçmaz

YAP Xaçmaz rayon təşkilatı 23 dekabr 2019-cu il tarixdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası davam edir. YAP tərəfindən namizədliyi irəli sürülən namizədlərlə növbəti görüş Niyazoba kənd seçiciləri ilə olub. Görüşü YAP Xaçmaz rayon təşkilatının sədr müavini, Seçki Qərargahının üzvü Abasyar Heydərov açaraq, bələdiyyələr və bələdiyyə seçkiləri haqqında geniş məlumat verib. Bildirib ki, həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq, ölkəmizdə genişmiqyası inkişafa nail olunub. O, gələcək hədəfləri haqqında seçiciləri məlumatlandırdı. Tədbirdə qərargah üzvü Sürayə Əmirova, seçicilərdən Əmirxan Sərdarov, bələdiyyə üzvlüyünə namizəd Gülağa Əhmədov və başqaları çıxış edərək, bələdiyyə seçkilərində daha fəal iştirak edəcəklərini bildirməklə, partiyanın qələbəsini təmin etməyə çalışacaqlarını qeyd ediblər.

### Astara

Dünən bələdiyyə seçkiləri ilə əlaqədar olaraq, YAP Astara rayon təşkilatı növbəti görüşünü Pensər və Kakalos kəndlərində keçirib. Görüşü Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatının sədri Firudin Əhmədov açaraq, bələdiyyə seçkilərindən, bu seçkilərlə əlaqədar indiyə qədər görülmüş işlərdən, dövlətimizin yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə olan yüksək diqqət və qayğısından, eləcə də, gələcəkdə bələdiyyələrin qarşısında duran vəzifələrdən danışmışdır. F.Əhmədov həyata keçirilən irimiqyaslı layihələrin, məhz Yeni Azəbaycan Partiyasının və onun Sədri, ölkə Prezidenti İlham Əliyevin adıyla bağlı olduğunu və bütün bunların hər bir vətəndaşın gözü qarşısında baş verdiyini seçicilərin diqqətinə çatdırıb. YAP tərəfindən irəli sürülən namizədlərin xalqımız tərəfindən yekdil dəstək alacağına inandığını bildirərək, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olmağa çağırıb. Görüşdə çıxış edən rayon ağsaqqallarından Gülağa Rzayev, Ələsgər Əliyev bildirdilər ki, Astara rayonunda rayon sakinlərinin YAP-a, partiyanın Sədri, ölkə Prezidenti İlham Əliyevə inamı çox güclüdür.Astaralılar bu inamı keçirilən bütün seçkilərdə nümayiş etdirmişlər. Zəngin seçki təcrübəsinə malik olan rayonumuzda bütün seçki proseslərində hər zaman yüksək seçici fəallığı nümayiş olunubdur. Əminliklə deyə bilərik ki, bələdiyyə seçkiləri də rayonumuzda uğurla keçəcək, seçicilərimiz Yeni Azərbaycan Partiyasının namizədlərinə böyük dəstək olacaq və onlara səs verəcəklər. Pensər və Kakalos kənd sakinləri Faiq Həsənov, Nadejda Zülfüqarova, Elvin Məlikov,Şölə Əliyeva, Paşa Əkbərov, Fərbiyyə Şabanova, Məlahət Rzayeva görüşdə çıxış edərək bələdiyyə seçkilərində fəal iştirak edəcəklərinə və layiqli namizədə səs verəcəklərini bildirdilər.






### Balakən

Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatı qərargahında toplaşan ağsaqqallar 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərində fəallıq nümayiş etdirmək üçün gəldiklərini öz çıxışları ilə bildirdilər. Tədbiri giriş sözü ilə açan YAP Balakən rayon Seçki Qərargahının sədri Azad Balayev əmin olduğunu bildirib ki, rayonun ağsaqalları, ziyalıları hər seçkidə olduğu kimi, bu dəfə də seçki günü fəallıq nümayiş etdirəcək, hər biri öz ailəsində yaşadığı kəndlərdə əhalinin seçki fəallığını yüksəltmək üçün istiqamətverici iş aparacaqlar. Görüşdə çıxış edən rayon ağsaqallar şurasının sədri Rəşid

# Prezident İlham Əliyevin praqmatikliyi və uzaqgörənliyi sayəsində bütün sahələrdə sistemli, ardıcıl islahatlar aparılır



*YAP Gəncə şəhər təşkilatının sədri, Milli Məclisin deputatı Naqif Həmzəyevin yap.org.az-a müsahibəsi*

**- Naqif müəllim, YAP Siyasi Şurasının Azərbaycan parlamentinin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı təşəbbüsü və bununla əlaqədar Milli Məclisin müvafiq qərarını necə dəyərləndirirsiniz?**

- Milli Məclisdə çoxluğu təşkil edən hakim partiyanın Siyasi Şurasının və deputatlarının V çağırış parlamentin buraxılması, növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı təşəbbüsü dövlət Başçısı İlham Əliyevin genişmiqyaslı, məntiqi ardıcıllığa uyğun olaraq bir-birini tamamlayan islahatlarının davamı kimi qəbul edildi. YAP-ın Siyasi Şurası da bu qərarın ölkədə islahatlar kursuna və kadr islahatlarına dəstək məqsədilə verildiyini qeyd edib.

Hər kəsə məlumdur ku, dünya siyasətində öz qətiyyəti, prinsipiallığı ilə böyük nüfuz qazanmış Prezident İlham Əliyevin praqmatikliyi və uzaqgörənliyi sayəsində bütün sahələrdə sistemli, ardıcıl islahatlar aparılır. Təkcə Azərbaycan dövlətçiliyi tarixinə sosialyönümlü il kimi düşən 2019-cu ildə həyata keçirilən islahatlara nəzər salsaq görərik ki, az bir zaman ərzində bu islahatlar özünü doğrultdu, ölkəmizin gələcək dinamik və davamlı inkişafına, əhalinin güzəranının, rifah halının yaxşılaşdırılmasına xidmət etdi. Belə olan halda ölkəmizin sürətli inkişafının təmin olunması üçün aparılan islahatların qanunverici hakimiyyətdə-Milli Məclisdə də gündəmə gətirilməsi labüd oldu. Yarandığı gündən öz taleyüklü qərarları, gələcəyə baxışları ilə uğurlara, iklərə imza atan hakim partiya bu dəfə də fərqləndi. Azərbaycanın parlament tarixində ilk dəfə olaraq, Milli Məclisin fəaliyyətinə vaxtından əvvəl xitam verilməsi ilə bağlı Yeni Azərbaycan Partiyası Siyasi Şurası tərəfindən təşəbbüs irəli sürüldü. Bu da parlament tarixində daha bir maraqlı yenilik oldu. Dövlətçilik ideallarının, azərbaycançılıq düşüncəsinin təbliğatçısı, müstəqilliyimizin daimiliyinin, əbədiliyininin ayıq-sayıq keşikçisi olan Yeni Azərbaycan Partiyası Azərbaycanın gələcək dinamik və davamlı inkişafına xidmət edən islahatlar fonunda qanunverici orqanda da yeniləşmənin vacibliyini gündəmə gətirdi, ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin islahatlar konsepsiyasına dəstəyini nümayiş etdirdi.

Hər zaman cəmiyyətin inkişafına töhfələr verən hakim partiyanın üzvləri Siyasi Şuranın noyabrın 28-də keçirilən iclasında məsələni ətraflı şəkildə müzakirə etdikdən sonra, Milli Məclisin xalqın, ölkəmizin mənafeyinə, parlaq gələcəyinə xidmət edən islahatlardan kənarda qalmaması üçün Azərbaycan parlamentində də günün tələblərindən irəli gələn yeniləşməsinin, müasirləşməsinin zəruri olduğu barədə yekdil qərara gəlib etdilər.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini-icra katibi, Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov partiyanın Siyasi Şurasının iclasında müzakirə olunan məsələ ilə əlaqədar mətbuata açıqlamasında xüsusi ilə vurğuladı ki, Prezident İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyası islahatlar konsepsiyasını dəstəkləyir, bu islahatların uğurla həyata keçirilməsinə öz töhfəsini verir və bundan sonra da verəcək.

**- Sizcə, parlament islahatları ölkəmizin ümumi inkişafına nə kimi töhfələr verəcək?**

- Azərbaycan Parlamentinin ölkədə müstəqilliyin möhkəmləndirilməsində və sürətli inkişafın təmin edilməsində xidmətlərini danmaq olmaz. 100 illik tarixi olan parlamentin ölkəmizdə dövlətçilik məfkurəsinin və siyasi mədəniyyətin inkişafında əvəzsiz xidmətləri sayəsində Azərbaycan xalqı demokratik prinsiplərə əsaslanan milli dövlətini qurub. Ölkənin siyasi sisteminin daha da inkişafı, iqtisadi qüdrətinin artması, demokratik proseslərin dərinləşməsi ilə bağlı verilən qanunvericilik aktları, mövcud qanunların daha da təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinin milli maraqlarımıza xidmət etdiyinin təsdiqidir.

Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimizin tərəqqisinə, hesablanan islahatların hakimiyyətin qanunvericilik orqanında da aparılması Azərbaycanın gələcək dinamik və davamlı inkişafını zəruri edib. Bütün sahələrdə aparılan genişmiqyaslı, məntiqi ardıcıllığa uyğun olaraq bir-birini tamamlayan islahatlarının davamı kimi qiymətləndirilən yeni parlament seçkilərinin keçirilməsi sözsüz ki, siyasi islahatların dərinləşməsinə, ölkənin inkişafına yeni töhfələr verəcək, qanunvericilik sahəsinə yeni keyfiyyət dəyişiklikləri gətirəcək. Daha mükəmməl, səmərəli qanunlar ölkəmizin gündən-günə çiçəklənməsinə xidmət edəcək.

**- Bəzi müxalifət dairələri bu məsələ ilə bağlı müxtəlif iddialarla çıxış edirlər. Buna münasibətiniz necədir?**

- Demokratiya pərdəsi altında çirkin niyyətlərini həyata keçirmək üçün var qüvvələri ilə səfərbər olan dağıdıcı müxalifətin arzusu ölkəmiz haqqında beynəlxalq aləmdə mənfi rəy yaratmaq, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlara kölgə salmaq, sabitlik adasına çevrilən ölkəmizin dincliyini pozmaqdır. Ölkədə belə bir mühüm qərarın alındığı vaxtda sözsüz ki, müxalifətin cəfakeşləri Milli Məclis ətrafında oyunbazlıqlar edəcək, məkirli məqsədlərinə nail olmaq üçün cilddən cildə girəcəklər. Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Sözsüz ki, Azərbaycan Respublikasının yaşı 25-dən aşağı olmayan hər bir vətəndaşının qanunla müəyyən edilmiş qaydada millət vəkili seçilmək hüququ var. Ancaq, əvvəlcə xalqın etimadını qazanmaq lazımdır, fəaliyyətinlə xalqın rifahına, milli maraqlara sadiqliyini təsdiq etməlisən. Çətin sınaqlardan çıxan müdrik, uzaqgörən xalqımız artıq kimin kim olduğunu yaxşı bilir, dünənə kimi xarici qüvvələrin, anti-Azərbaycan dairələrin maliyyəşdirdiyi müxalifətin yalan vədlərlə dolu pafoslu sözlərinə, çirkin kampaniyalarına inanmır. Müxalifət dairələrinin işi həmişə olduğu kimi müxtəlif yalan, şər, böhtan dolu iddialar səsləndirməkdir.

# İslahatlar Azərbaycanın qüdrətinin daha da artmasına xidmət edir



*Milli Məclisin deputatı Eldəniz Səlimovun yap.org.az-a müsahibəsi*

***- Eldəniz müəllim, bildiyimiz kimi, ölkəmizdə qanunvericilik sahəsində islahatlar həyata keçiriləcək. Bu barədə nə deyə bilərsiniz?***

- Prezident İlham Əliyevin siyasi iradəsi əsasında Azərbaycanda bütün sahələrdə sistemli, kompleks xarakterli, fundamental islahatlar həyata keçirilir. Hazırda Prezident Administrasiyası, Nazirlər Kabineti, idarəetmə orqanları, ümumiyyətlə, dövlət həyatının bütün sahələrində həyata keçirilən islahatlar cəmiyyət tərəfindən rəğbətlə qarşılanır. Qarşıya çıxan yeni çağırışlar, cəmiyyətin gözləntiləri və digər amillər qanunvericilik fəaliyyətində də islahatların dərinləşməsini, parlamentin yeniləşməsini zərurətə çevirib.

Bilirsiniz ki, Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının noyabrın 28-də keçirilən iclasında Azərbaycanın parlamentində islahatların davam etdirilməsi ilə əlaqədar məsələ müzakirə edilmiş, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların qanunverici hakimiyyət sferasından kənarda qalmamalı olduğu qənaəti ifadə edilmişdi. Dekabrın 2-də keçirilən Milli Məclisin iclasında isə Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə məsələ müzakirə edilib. Müzakirələrdən sonra bu barədə qəbul edilib. Artıq Konstitusiya Məhkəməsi bu məsələnin Konstitusiyamıza uyğun olması barədə qərar qəbul edib.Ümumiyyətlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət Azərbaycanın sürətli inkişafını təmin edib, ölkə qarşısında yeni perspektivlər açılıb. Bütün sahələri əhatə edən kompleks islahatlar Azərbaycanın qüdrətinin daha da artmasına xidmət edir. Azərbaycan xalqı bütün bu tədbirləri görür və yüksək qiymətləndirir. Xalqımız Prezident İlham Əliyevin liderliyi ilə yürüdülən dövlət siyasətini müdafiə edir. Bu siyasətin alternativi yoxdur.

İslahatların daha da sürətləndirilməsi və bütün dövlət hakimiyyəti qollarını əhatə etməsi çox mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikası Milli Məclisinin də fəaliyyətinin təkmilləşdirilməsi, səmərəliliyinin artırılması, yenilənməsi bu baxımdan xüsusi önəm kəsb edir. Ona görə də parlamentin buraxılması və yeni parlament seçkilərinin keçirilməsi reallaşdırılan dərin islahatlar strategiyasına əlavə töhfə kimi qiymətləndirilə bilər.

***- Bu gün Azərbaycan dinamik inkişaf edir. Ölkəmiz yeni inkişaf dövrünü yaşayır...***

- Hazırda müstəqil Azərbaycan tamamilə yeni inkişaf dövrünü yaşayır. Qısa müstəqillik tarixində respublikamız ayaqda möhkəm duran, heç kimdən asılı olmayan güclü bir dövlətə çevrilib. Azərbaycan dövləti Prezident İlham Əliyevin müdrikliyi, siyasi iradəsi sayəsində xalqımızın milli maraqlarını yüksək səviyyədə təmin edən məqsədyönlü siyasət həyata keçirir, dünyada elə bir güc yoxdur ki, respublikamızla diktə ilə danışa bilsin. Azərbaycanın bugünkü reallığına diqqət çəkən Prezident İlham Əliyev BDU-nun 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə vurğulayıb: "Bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz".

Bu gün Azərbaycanın siyasi müstəqilliyinin təməlində dayanan əsas amil qismində güclü iqtisadiyyat çıxış edir. Müstəqil Azərbaycanın bütün dünya üzrə ən dinamik iqtisadi inkişafa nail olması qürurverici haldır. Son 16 ildə Azərbaycanın zəngin potensialından bəhrələnməklə müstəqil respublikamızın dinamik iqtisadi inkişafını təmin etmək həmişə Prezident İlham Əliyevin fəaliyyətindən qırmızı xətt kimi keçib. Praqmatik siyasətçi olan Prezident İlham Əliyev dövlət siyasətində iqtisadi inkişafın prioritetliyini müəyyənləşdirərkən Özünün dəfələrlə bəyan etdiyi belə bir fundamental tezisə əsaslanır ki, ölkənin bütün sahələrdə uğurlar qazanması məhz güclü iqtisadiyyat amili ilə şərtlənir.

***- Azərbaycanın gücünü göstərən amillərdən biri bugünlərdə TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı oldu. Sizcə, bu hadisənin əhəmiyyəti nədən ibarətdir?***

- Bəli, Azərbaycan tarixi günlərinin birinidə yaşadı. 2015-ci ildə əsası qoyulan TANAP Avropa sərhədinə çatdı. Bu layihə 7 ölkəni birləşdirir. TANAP enerji təhlükəsizliyi layihəsidir. Türkiyə ilə Azərbaycan arasındakı strateji əməkdaşlıq onu göstərir ki, bu iki ölkə gələcəyə inamla birgə addımlayacaqlar. Bu layihələrin həyata keçirilməsi ölkəmiz üçün böyük iqtisadi inkişafı daha da sürətləndirir. TANAP Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrin ən önəmlilərindən biridir.

Biz bu gün Asiya ilə Avropanı TANAP vasitəsilə birləşdirdik. Dünyaya bir daha Türkiyə-Azərbaycan arasında köklü dostluğun mövcudluğunu sübut etdik. Tarixdə liderlərin rolu danılmazdır. Ölkəmiz möhtərəm Prezidentimiz İlham Əliyevin sayəsində sürətli inkişafa nail oldu, iqtisadi gücünü artırdı, bu da siyasi gücümüzü, beynəlxalq nüfuzumuzu artırır. Eyni zamanda, qardaş ölkəyə Azərbaycan tərəfindən sərmayə qoyuluşu ildən-ilə artmaqda davam edir. Bu layihələrin həyata keçirilməsi nəticəsində ölkəmiz xeyli gəlir əldə etməklə ölkəmizin inkişafını davamlı edəcək, insanların rifah halının yaxşılaşmasına xidmət edəcək.

# Bölgələrdə Nəsiminin 650 illik yubileyi ilə bağlı ağacəkmə aksiyası keçirilib

## İsmayıllı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin "Nəsimi İli" elan edilməsi çərçivəsində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, bir gün ərzində, respublika ərazisində 650 min ağac əkmək təşəbbüsünü irəli sürüb. İsmayıllı sakinləri bu təşəbbüsə böyük sevinc və məsuliyyətlə qoşulub. Bu dəyərli, ekoloji tarazlığın yaradılması və möhkəmləndirilməsində çox əhəmiyyətli olan aksiyanın həyata keçirilməsi üçün bütün hazırlıq işləri vaxtında görülüb. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən 19 min əkin materialı alınıb, yerli imkanlar hesabına isə 1000 ədəd ting tədarük edilib. 6 dekabr tarixində dövlət başçısının Sərəncamına, Birinci vitse-prezidentin təşəbbüsünə cavab olaraq, İsmayıllı sakinləri mütəşəkkilliklə ağac əkməyə çıxıblar. Aprel zəfər döyüşünə həsr olunmuş "Zəfər" Parkında 700, Heydər Əliyev prospektində 300, Əbülhəsən Ələkbərzadə küçəsində 1200 və rayonun bütün kəndlərində və bələdiyyə ərazilərində çoxnövlü ağaclar əkilib. Bu nəcib təşəbbüsə Yeni Azərbaycan Partiyasının üzvləri rayonun bütün idarə, müəssisə və təşkilatları, yerli icra və özünüidarəetmə strukturları, gənclər, ağsaqqallar, ümumi təhsil məktəbləri tərəfindən bəyənilib və həyata keçirilib. Bundan sonrakı plana əsasən, rayon ərazisində ağacəkmə kampaniyası davam edəcəkdir.

## Zərdab



Böyük Azərbaycan şairi və mütəfəkkiri Nəsiminin 650 illik yubileyi ilə bağlı ağacəkmə kampaniyası keçirilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə keçirilən 650 min ağac əkini kampaniyasına qoşulan zərdablılar 6 dekabr 2019-cu il tarixdə şəhər və kəndlərdə, park və meydanlarda, ümumilikdə, rayon ərazisində müxtəlif növ ağaclar əkiblər. Rayon ərazisində kampaniyaya hazırlıq ərəfəsində 17 min, bu gün isə 10 min ədəddən çox ağac əkilib, yeni yaşıllıqların suvarılması üçün xətlər çəkilib. Ağacəkmə kampaniyasında rayon rəhbərliyi, icra strukturlarının nümayəndələri, idarə, müəssisə və təşkilatların əmək kollektivlərinin üzvləri, gənclər, YAP fəalları, ictimaiyyət nümayəndələri - ümumilikdə, 2500 nəfərdən çox rayon sakini iştirak edib.

## Tərtər

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dahi şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə respublikamızda bir gündə 650 min ağacın əkilməsi təşəbbüsü cəbhə bölgəsində yerləşən Tərtər rayonunda da yüksək fəallıqla həyata keçirilib.Şairin irsinin daha geniş təbliği, eyni zamanda, yaşıllıqların artırılması və ekoloji mühitin sağlamlaşdırılması məqsədi daşıyan bu nəcib



və xeyirxah aksiyanın yüksək səviyyədə keçirilməsi üçün ağac əkini üçün nəzərdə tutulan ərazilər əvvəlcədən təmizlənib, hamarlanıb, cızlar çəkilib, çalalar qazılıb əkinə tam hazır vəziyyətə gətirilib.Tərtərlilər aksiya çərçivəsində Tərtər-Bərdə, Tərtər-Hindarx, Tərtər-Şıxarx, Tərtər-Gəncə avtomobil yollarının kənarlarında, Tərtər şəhərində və rayonun kəndlərində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilmiş 500 ədəd şam, 3000 ədəd göyrüc, 2500 ədəd akasiya, 2000 ədəd iydə, 1000 ədəd çinar, 1000 ədəd sərv, yerli tingçilər tərəfindən isə 5 min ədəd müxtəlif növ meyvə ağacları, ümumilikdə, 15 min ağac əkiblər.Ağac əkilən ərazilərdə abadlıq-təmizlik işləri aparılıb, ağaclara aqrotexniki qulluq göstərilib və suvarılması həyata keçirilib. Əlavə olaraq gün ərzində, Çin Xalq Respublikasından baramaçılığın inkişafı məqsədi ilə gətirilən 30 min ədəd tut tinginin də əkilməsinə start verilib. Tərtərlilər rayon Mədəniyyət Mərkəzinin özfəaliyyət kollektivinin hazırladıqları konsertin musiqi sədaları altında bayram əhval-ruhiyyəsi ilə ağacəkmə aksiyasını davam etdiriblər.

## Xocavənd



Dünən Xocavənd rayonunda "Azərbaycanımızı yaşıllaşdıraq" devizi altında ağacəkmə aksiyası keçirilmişdir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar bir gün ərzində 650 min ağacın əkilməsi ilə bağlı təşəbbüsünə qoşulan xocavəndlilər 1400 ağac, eyni zamanda, Rayon Polis Şöbəsinin əməkdaşları 100 ağac əkiblər. Kampaniyada Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçisi Ağa-Əli Əhmədov, rayon icra hakimiyyətinin başçısı Eyvaz Hüseynov, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP Xocavənd rayon təşklatının üzvləri, Rayon ictimaiyyəti, idarə , müəssisə, təşkilatların işçiləri, könüllülər, ölkəmizi tanıyaq tur-aksiyasının məktəbliləri iştirak etmişdir.

750 nəfərdən çox sakinin iştirak etdiyi aksiya bayram əhval-ruhiyyəli keçmiş, Nəsiminin qəzəllərindən ifalar səsləndirilmişdir.

## ŞƏMKİR



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibəti ilə bir gündə respublikamızda 650 min ağacın əkilməsinin nəzərdə tutulmasıdır. Bu təşəbbüs ölkəmizdə ekoloji mühitin sağlamlaşdırılmasına böyük bir töhfədir. 650 min ağacın əkilməsi ölkəmizdə yaşıllıqların daha da artırılmasına, bütün bəşəriyyət üçün qlobal problem olan iqlim dəyişikliyinin təsirlərinin azaldılmasına, karbon qazının udulmasına, həm də torpaqların şoranlaşmasının qarşısının alınmasına müsbət təsir göstərəcək. "Nəsimi İli" ilə əlaqədar olaraq, ölkənin hər yerində olduğu kimi, bu gün Şəmkir rayonu ərazisində də ağacəkmə kampaniyası keçirilib. Əraziyə 1000-ə yaxın rayon sakini tərəfindən 6000 ədəd ağac əkilib. Dünən keçirilən ümumrespublika ağacəkmə aksiyası Şəmkir rayonunda rayon ziyalıları, xüsusilə də, gənclər arasında böyük ruh yüksəkliyi ilə həyata keçirilib. Aksiyada Prezident Administrasiyasının məsul əməkdaşı Orxan Mürsəlov, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Novruz Quliyev, Şəmkir rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, rayon icra hakimiyyətinin və YAP rayon təşkilatının məsul işçiləri, idarə, müəssisə işçiləri, rayon ictimaiyyətinin nümayəndələri, rayonun fəal gəncləri və YAP fəalları iştirak ediblər. Aksiya tədbir iştirakçıları tərəfindən bayram əhvalı ilə qarşılanıb və milli musiqilərimizin sədaları altında keçirilib. Ağacəkmə aksiyasında Eldar şamı, sərv, göyrüş, iydə, qarağac, qovaq, tuya və s. əkilib.

## Biləsuvar




Dünən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə respublikamızda bir gündə 650 min ağacın əkilməsi təşəbbüsünə qoşulan biləsuvarlılar rayon ərazisində bir gündə 3 min ağac əkdilər. Ağacəkmə aksiyasında Biləsuvar rayon icra hakimiyyəti və YAP Biləsuvar rayon təşkilatının birgə rəhbərliyi ilə rayonun bütün idarə, müəssisə, təşkilat kollektivləri, ictimaiyyət nümayəndələri və gənclər iştirak edirdi.Bu məqsədlə rayonda əvvəlcədən ağac əkiləcək yerlər müəyyənləşdirilib və ərazidə müvafiq işlər aparılmışdır. Biləsuvar-Əsgərabad-Çaylı yolunun kənarı boyunca olan ərazidə ağcaqayın, xan çinarı, şam, göyüş, ərik və digər ağac növləri əkilərək suvarılmışdır.

## Kürdəmir



Mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsü respublikamızda, o cümlədən, Kürdəmir rayonunda da böyük razılıqla qarşılanıb.

Ardı Səh. 12

# Bölgələrdə Nəsiminin 650 illik yubileyi ilə bağlı ağacəkmə aksiyası keçirilib

**Əvvəli-Səh-11**

Dekabrın 6-da Yeni Azərbaycan Partiyası Kürdəmir rayon təşkilatının üzvləri də bu genişmiqyaslı kampaniyaya həvəslə qoşularaq, qabaqcadan müəyyən olunmuş ərazilərdə rayonun iqliminə uyğun 5 mindən çox ağac tinginin əkilməsində iştirak ediblər. Qeyd edək ki, Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir. Prezident İlham Əliyev tərəfindən İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu ilin ölkəmizdə “Nəsimi İli” elan olunması görkəmli şairin ədəbi irsinin təbliği və öyrənilməsində yeni imkanlar açıb. Həmçinin, “Nəsimi İli” çərçivəsində ölkəmizdə və dünyada bir sıra mühüm tədbirlər də keçirilir.

### Pirallahı



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, Pirallahı rayon icra hakimiyyəti və YAP Pirallahı rayon təşkilatının birgə təşkilatçılığı ilə 6 dekabr 2019-cu il tarixdə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Pirallahı rayonunda 38000-dən artıq müxtəlif növ ağac əkilmişdir. Ağacəkmə aksiyasında RİH-in, YAP rayon təşkilatının, idarə, müəssisə və təşkilatların əməkdaşları, həmçinin, ictimaiyyətin nümayəndələri iştirak etmişlər. Ümumilikdə, aksiyada 1550 nəfər iştirak etmişdir. Möhtərəm Prezidentimiz tərəfindən həyata keçirilən sosial-iqtisadi islahatların əsas istiqamətlərindən biri ətraf mühitin mühafizəsi və insanların sağlam və ekoloji təmiz şəraitdə yaşaması olduğundan, Pirallahı rayonu da bu aksiyadan kənarda qalmamışdır. Aksiya iştirakçıları ağac əkməklə yanaşı, ərazidə təmizlik-abadlıq işləri aparmış, əkilmiş tinglərə və yeni əkilən ağaclara aqrotexniki qulluq göstərmişlər. Bu aksiya yaşıllıq zolaqlarının genişlənməsinə, ekoloji tarazlığın bərpasına, eləcə də, cəmiyyətdə ekoloji mədəniyyətin və təbiətə qayğı hissinin gücləndirilməsinə böyük töhfə verəcəkdir. Pirallahı ən gənc rayon olmasına baxmayaraq, ölkə başçısının diqqət və qayğısı nəticəsində, artıq Bakı rayonları arasında öz layiqli yerini tutmuşdur. Dövlət başçısının dediyi kimi, “Pirallahının siması dəyişib və o, bu gün Bakının ən qabaqcıl rayonlarından birinə çevrilmişdir”. Yaradıldığı 6 il müddətində ölkə başçısının rayona 6 səfəri baş tutmuşdur ki, bunlardan da üçü Birinci-vitse prezident Mehriban xanım Əliyeva ilə birlikdə olmuşdur. Bu səfərlər zamanı rayonda çoxsaylı sənaye müəssisələrinin, müxtəlif təyinatlı sosial obyektlərin açılış və təməlqoyma mərasimləri reallaşmışdır. Dekabrın 6-da Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev də Pirallahı rayonunda olmuşdur. O, Pirallahı qəsəbəsinin girişində 2015-ci ilin dekabrında dənizdə neft platformasında baş vermiş qəza nəticəsində həlak olmuş neftçilərin xatirəsinə ucaldılmış adidəni ziyarət etmiş, abidənin önünə gül dəstəsi qoymuşdur. Abidənin ətrafında neftçilərin xatirəsinə 33 ədəd ağac əkilmişdir. R.Abdullayev sonra Pirallahı qəsəbəsində, “Abşeronneft” NQÇİ-nin ərazisində həyata keçirilən ağacəkmə aksiyasında da iştirak etmişdir.

### Samux

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə “650



min ağac əkək” aksiyası hər yerdə olduğu kimi, Samux rayonunda da rəğbətlə qarşılanıb. Prezident İlham Əliyevin Sərəncamı ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu ilin “Nəsimi İli” elan edilməsi, Birinci vitse-prezident Mehriban Əliyevanın bir gündə 650 min ağac əkilməsi ilə bağlı təşəbbüsü böyük sənətkarın adının əbədiləşdirilməsi, beynəlxalq aləmdə təbliği, Azərbaycanın ədəbi və mədəni irsinin tanıdılması baxımından, xüsusi əhəmiyyət daşıyır. Bu təşəbbüs Nəsimi dühasının təbliği ilə bərabər, ölkəmizin yaşıllıqlar diyarına çevrilməsinə də bir vəsilədir. Bu təşəbbüs Samux rayon gəncləri tərəfindən də yüksək qiymətləndirilib. Aksiya ərəfəsində onlar hər gün səhər ərazilərə gedir, sahələri təmizləyir, çalalar qazaraq ağacəkmə kampaniyasının başlanmasını səbirsizliklə gözləyirdilər. Bu gün isə YAP Samux rayon təşkilatının gəncləri böyük ruh yüksəkliyi ilə aksiyaya qoşulublar, təbiətimizə gözəllik gətirəcək bu aksiyada böyük fərəhlə iştirak edirlər. Onlar bu xeyirxah aksiyanın uğurla həyata keçməsi üçün öz səylərini əsirgəmirlər. Qeyd edək ki, bu təşəbbüs dahi şairin irsinin təbliği ilə bərabər, həm də ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə, gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərin həllində birgə fəaliyyətə səsləyir.

***Rəfiqə Hüseynova,***
***Zümrüd Bayramova***

# “Kreativ Azərbaycan” portalının təqdimatı olacaq

***Ölkəmizdə qeyri-neft sektorunun inkişafı və islahatların daha sürətlə davam etdirilməsinin zəruriliyini, eləcə də yaradıcı iqtisadiyyat kontekstində yaradıcı sənayelərinin milli iqtisadiyyatlarda vacib rola malik olduğunu və perspektiv imkanlar açdığını nəzərə alaraq, bu sənaye sahələrinin inkişafı və yaradıcılıq proseslərinin iqtisadi və sosial təsirlərinin artırılması istiqamətində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə müxtəlif fəaliyyətlər həyata keçirilir.***

AZƏRTAC xəbər verir ki, bu məqsədlə dekabrın 9-da Bakı Konqres Mərkəzində “Kreativ Azərbaycan” portalının təqdimatı və “Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar” mövzusunda panel müzakirəsi keçiriləcək. “Kreativ Azərbaycan” portalı Mədəniyyət Nazirliyi tərəfindən sahəvi inkişaf proseslərinə dair aktiv təbliğat və maarifləndirmə işlərinin aparılması üçün yaradılıb. Portalda müxtəlif növ xəbərlər, tədbirlər, bu sahədə fəaliyyət göstərən şirkətlər və fərdlər haqqında məlumatlar əks olunacaq, həmçinin yaradıcı sənaye iştirakçılarının şəbəkələşməsinə dəstək göstərəcəkdir.

Portalın yaradılmasında məqsəd, həmçinin Azərbaycanın yaradıcı məhsullarının “Kreativ Azərbaycan” brendi altında təşviqidir. Təqdimat mərasiminin ardından müvafiq dövlət qurumlarının rəhbərləri və eləcə də kreativ sektorun təmsilçiləri olan ekspertlərin iştirakı ilə “Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar” mövzusunda panel sessiyası keçiriləcək.

KREATİV AZƏRBAYCAN

# Gələn il Bakıda iki “ASAN xidmət” mərkəzi fəaliyyətə başlayacaq



Bu ilin sonuna kimi Tovuz, Kürdəmir və Ağcabədidə “ASAN xidmət” mərkəzlərinin açılışı gözlənilir. Gələn il Bakıda 2 “ASAN xidmət” mərkəzinin fəaliyyətə başlaması nəzərdə tutulub. Mərkəzlər paytaxtın Nərimanov və Xətai rayonlarında olacaq. Bununla yanaşı, 2020-ci ildə Balakəndə də “ASAN xidmət” mərkəzinin açılması planlaşdırılıb. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov jurnalistlərə açıqlamasında məlumat verib.

# Övladlığagötürmə ilə bağlı Qaydalar layihəsi ictimai müzakirəyə çıxarılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış “Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi Qaydaları” layihəsi ictimai müzakirənin təmin edilməsi məqsədilə nazirliyin sosial.gov.az saytında yerləşdirilib. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, vətəndaş cəmiyyəti institutları, mütəxəssis və ekspertlər, ayrı-ayrı vətəndaşlarahttp://sosial.gov.az/uploads/images/image_750x_5ddf6750e85de.pdfa linkinə daxil olaraq layihə ilə tanış ola, rəy, irad və təklifləriniaogss@sosial.gov.aza ünvanına göndərə bilərlər.

# Kürdəmirdə ölümlə nəticələnən yol qəzası baş verib

Kürdəmir rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayonun Sığırlı kəndi ərazisində Mingəçevir şəhər sakini Ayxan Cabbarlı idarə etdiyi “Ford” markalı avtomobili qarşıda gedən “KamAZ” markalı avtomobilə vurub. Nəticədə A.Cabbarlının avtomobilində olan sərnişinlərdən Rəşad Şıxıyev hadisə yerində ölüb, özü və digər sərnişini xəstəxanaya yerləşdiriliblər. Hadisə ilə bağlı Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

# Qaçqın və məcburi köçkünlər dövlət qayğısı ilə əhatə olunublar

## *Prezident İlham Əliyev: "Köçkünlərin problemlərinin həlli ümumxalq məsələsi olmalıdır"*

***Ermənilərin Azərbaycan xalqına qarşı iki yüz ildir ki, həyata keçirdiyi soyqırımı və cinayət əməllərinin davamı olaraq, 1988-ci ildən başlayaraq, havadarlarının hərbi-siyasi dəstəyi ilə Azərbaycanın minlərlə yaşayış məskəni işğal edilərək dağıdılmış, yüz minlərlə insan ev-eşiyindən didərgin düşmüşdür. Müstəqiliyimizin ilk illərində yaşadığımız bu ağrını-acını bu gün də yaşamaqdayıq. Ancaq təsəlli yalnız ondan ibarətdir ki, artıq qaçqın və məcburi köçkünlərin sosial-məişət problemləri, qayğıları dövlətimizin diqqət və qayğısı hesabına tədricən aradan qaldırılır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə QAYIDIŞI-nın ilk mərhələsində gördüyü xeyirli, gərəkli işlərin başlıca ana xəttini işğal olunmuş ərazilərdən qaçqın və məcburi köçkün düşən insanların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, sosial təminatlarının həll edilməsi oldu.***

Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, onların məskunlaşma səviyyəsinin yaxşılaşdırılması məqsədilə Ümummilli Lider Heydər Əliyevin Sədrliyi ilə 1998-ci il iyunun 27-də Ümumrespublika Müşavirəsi keçirildi. "İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir" deyən Ulu Öndər elə həmin il Biləsuvar rayonu ərazisindəki çadır düşərgələrinə səfər etdi. Bununla da, məcburi köçkünlərin sosial problemlərinin, onların həyat səviyyəsinin yaxşılaşdırılması məqsədilə dövlət tərəfindən əməli işlərə, çadır düşərgələrinin ləğvinə başlanıldı.



### Qaçqın və məcburi köçkünlər rahat, hər cür şəraiti olan mənzillərlə təmin olunublar

Ümummilli Liderimiz Heydər Əliyevin 1993-2003-cü illərdə münaqişənin aradan qaldırılması istiqamətindəki fəaliyyəti, qaçqın və məcburi köçkünlərə xüsusi qayğısı, çadır düşərgələrinin ləğvi ilə əlaqədar verdiyi qərarlar sonrakı işlər üçün təməl olub. Məhz əsası qoyulan bu siyasətin nəticəsi olaraq, bu gün demək olar ki, bir dənə də olsun çadır şəhərciyi qalmayıb. Qaçqın və məcburi köçkünlər, rahat, hər cür şəraiti olan mənzillərlə təmin olunublar. Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi Cənab İlham Əliyev 2003-cü ildə ölkə Prezidenti seçildikdən sonra bu işlər, yeni dövrün tələblərinə uyğun olaraq, ardıcıl və məqsədyönlü şəkildə davam etdirildi. Ötən müddətdə Azərbaycanın dinamik, sosial-iqtisadi inkişafı qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə əlverişli şərait yaradıb, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması istiqamətində görülən işlərin miqyası daha da genişlənib. Dövlətimizin başçısının 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və sonradan həmin sənədə 2007-ci il 31 oktyabr, 2011-ci il 21 fevral tarixli sərəncamlarla təsdiqlənən əlavələrin icrası uğurla reallaşdırılıb. Azərbaycan bu gün dünyadakı qaçqın probleminin həlli ilə bağlı görülən işlərə töhfə vermək, müxtəlif ölkələrdən respublikamıza gələn qaçqınları himayə etmək imkanına malikdir və bundan geniş istifadə edir. Bakının Kürdəxanı qəsəbəsində məcburi köçkün ailələri üçün salınan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində çıxış edən dövlətimizin başçısı bildirib ki, paytaxt ərazisindəki yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşan 810 məcburi köçkün ailəsi üçün Prezidentin 2011-ci ildə imzaladığı Sərəncama əsasən, çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinin tikilməsi nəzərdə tutulub. Məhəllənin salınması üçün 15 hektar torpaq sahəsi ayrılıb. Keçən ilin mart ayında başlanan tikinti işləri yüksək keyfiyyətlə sona çatdırılıb. Layihə üzrə doqquzmərtəbəli 15 bina tikilib. Bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 103-cü müasir yaşayış kompleksidir. Qaçqın və məcburi köçkünlər üçün indiyədək, ümumilikdə 3,2 milyon kvadratmetr yaşayış sahəsi olan 97 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb, 53 min ailənin və ya 265 min nəfər qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. 2016-cı il aprel zəfəri ilə işğaldan azad edilən Çocuq Mərcanlıda və Şıxarx qəsəbələrində bütün sosial-texniki infrastrukturu ilə birlikdə 1170 məcburi köçkün ailəsi üçün mənzil inşa edilmiş və açılışında Prezident İlham Əliyev də iştirak etmişdir. Bütün bunlar, onu göstərir ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Digər tərəfdən isə, onu göstərir ki, işğaldan azad edilmiş torpaqlarda Azərbaycan yeni həyat qurur, yeni ictimai binalar, yaşayış binaları, qəsəbələr salınır və minlərlə köçkün bu torpaqlara qayıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 18-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevi qəbul edərkən bildirib ki, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində bu il də çox böyük işlər nəzərdə tutulur. Bu işlərin bir hissəsi artıq görülüb: "Bu yaxınlarda "Qobu Park-2" yaşayış kompleksinin açılışını qeyd etdik. Bu kompleksdə 1300 qaçqın ailəsi yerləşəcək. Kompleksin açılışında gördüm ki, ən yüksək standartlar tətbiq olunur. Çox gözəl, rahat evlər, gözəl ictimai zonalar, məktəb, uşaq bağçası, supermarket, tibb məntəqəsi, yeni yaşayış üçün bütün şərait yaradılıbdır. Sevindirici hal ondan ibarətdir ki, "Qobu-1" və "Qobu-2" komplekslərinin tikintisi sırf özəl sektor tərəfindən təmin edildi. Hazırda tikilməkdə olan "Qobu-3" də özəl sektorun vəsaiti hesabına inşa edilir. Beləliklə, təqribən 4 minə yaxın köçkün ailəsi Qobu qəsəbəsində ən müasir standartlara cavab verən mənzillərlə təmin ediləcəkdir". Prezident İlham Əliyev onu da bildirib ki, köçkünlərin problemlərinin həlli ümumxalq məsələsi olmalıdır : "Düzdür, əsas yükü dövlət öz üzərinə götürübdür. Bu günə qədər yüzdən çox şəhərciyin tikintisi dövlət hesabına təmin edilmişdir. Ümumiyyətlə, köçkünlərin problemlərinin həlli, müavinətlərin verilməsi, evlərin tikilməsi üçün 7 milyard manatdan çox vəsait xərclənib. Bu il məcburi köçkünlərin müavinətləri 50 faiz artırıldı. Bu, bir daha onu göstərir ki, dövlət bu kateqoriyadan olan insanlara daim öz yardımını edir".

### Nəcib və xeyirxah əməl sahibi

Qaçqın və məcburi köçkünlərin sosial-məişət problemlərinin həllində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirlər bu kateqoriyadan olan insanlarda məmnunluq yaradan nüanslardandır. Belə ki, Mehriban xanım Əliyevanın 2017-ci ilin martında məcburi köçkünlərin sosial problemlərinə həsr edilən müşavirədə müvafiq qurumlar qarşısında konkret vəzifələr qoyub, bu kateqoriyadan olan insanların çətinliklərinin aradan qaldırılması barədə müvafiq tapşırıq və göstərişlərdən sonra bu istiqamətdə mühüm dəyişikliklər baş verdi. Misal olaraq, Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksinin inşası, Abşeronun Masazır, Mehdiabad, Sabunçunun Ramana qəsəbələrində 470 mənzilin məcburi köçkünlərə təqdim edilməsi, Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonunda yerləşən Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələrinin köçürülməsi, habelə, Sumqayıtdakı 1005 məcburi köçkün ailəsinin yeni tikilən yaşayış binalarından mənzillə təmin olunması onlara göstərilən qayğı və diqqətin bariz ifadəsidir. 2019-cu il aprelin 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Nəsimi rayonunda Tibb Universitetinin 4 saylı yataqxanasında və Qaradağ rayonunda salınan "Qobu Park" yaşayış kompleksində məskunlaşan məcburi köçkünlərlə görüşüb, onların problemləri, yaşayış şəraiti ilə tanış olub. Görüş zamanı sakinlərin arzu və istəklərini, dinləyən Birinci vitse-prezident onları narahat edən məsələlərin qısa zamanda həll olunması üçün müvafiq tapşırıqlar verdi. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da qaçqın və məcburi köçkünlərin üzləşdikləri çoxsaylı problemlərin dünya ictimaiyyətinə çatdırılmasına və onların həllinə diqqətlə yanaşır, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan "Azərbaycan" portalı, bu baxımdan, mühüm önəm daşıyır. Portalda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, Xocalı soyqırımından bəhs edən məlumatların yerləşdirilməsi dünya ictimaiyyətinin erməni vəhşilikləri ilə yaxından tanış olmasına şərait yaradır. Azərbaycanın baş nazirinin müavini Əli Əhmədov məcburi köçkünlərin maddi sıxıntılarının aradan qaldırılması üçün daim zəruri addımların atıldığını bildirib: "Amma onların mənəvi sıxıntısı var. Bu da, həmin insanların doğma torpaqlarının erməni işğalı altında olmasındadır. Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunda çıxışı zamanı "Qarabağ Azərbaycandır!" bəyanatını səsləndirməsi həm ermənilərə və onlara havadarlıq edənlərə ciddi mesajdır. Bu, o deməkdir ki, Azərbaycan xalqı səfərbər olunub, öz torpaqları işğaldan azad etməyə qadirdir. Prezidentimizin siyasəti bundan ibarətdir ki, münaqişənin həlli ilə bağlı danışıqlar prosesi davam edirsə, problemin sülh yolu ilə həlli imkanları tükənməyibsə, bu imkandan sona qədər yaralanmaq lazımdır. Əgər sülh danışıqları nəticə verməyəcəksə, biz ordumuzun gücü ilə ədaləti və ərazi bütövlüyümüzü bərpa edəcəyik. Azərbaycan vətəndaşları Prezidentimizin bu mövqeyini dəstəkləyir".

Bir sözlə, Ermənistanın işğalçılıq siyasəti nəticəsində doğma yurdlarından didərgin düşən insanların mənzil-məişət və sosial qayğılarının aradan qaldırılması istiqamətində son illər əhəmiyyətli tədbirlər görülür. Bu isə, bir daha təsdiq edir ki, qaçqın və məcburi köçkünlər, digər kateqoriyadan olan insanlar kimi yüksək dövlət qayğısı ilə əhatə olunublar.

**Mahirə Cəfərova**

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsi üçün*

# İctimai və dövlət maraqlarının müdafiəsi

***Noyabrın 21-də Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş möhtəşəm tədbir keçirildi. Dövlət başçısı Cənab İlham Əliyev də bu möhtəşəm yubiley tədbirinə qatıldı və 70 yaşlı şəhərin sakinlərini şəxsən təbrik etdi. Prezident İlham Əliyevin Sumqayıtdakı çıxışı yubiley təəssüratları olmaqla yanaşı, həm də ən yeni tariximizin yaxın 30 illik dövrünü əks etdirən zəngin və unikal faktlardan ibarət mənbə kimi diqqəti cəlb edir. Sözügedən dövrə aid bir sıra tarixi həqiqətlər sadə dildə, inandırıcı və konkret şəkildə ifadə olunub.***



Ölkə başçısının çıxışı sadə insanlardan, elm adamlarından, siyasi elita təmsilçilərindən ibarət böyük bir kontingent üçün istisnasız olaraq yüksək maraqla qarşılanan məruzələrdən biridir. Maraqlıdır ki, Prezident bu çıxışda yaxın keçmişdəki məlum problemlərin həm yaranmasının anatomiyasını dəqiq təhlil etdi, həm də bu problemlərin bir çoxundan yan keçməyin mümkün olduğunu əsaslandırdı. Dövlət başçısının Ulu Öndər Heydər Əliyev haqqında danışaraq təhlil etdiyi gerçəkliklər şübhəsiz tariximizin təkzibolunmaz faktları sayılır.

Sumqayıtın hansı amillərin əsasında beynəlmiləl şəhərə çevrilməsi, Ümummilli Lider Heydər Əliyev gedəndən sonra Azərbaycanın inkişaf tempinin ətalət həddinə düşməsi, Ulu Öndər Heydər Əliyevin siyasətdən uzaqlaşdırılmasının Qarabağda separatizm yollarında ilk addım olması, Sumqayıt faciəsinin ermənilər tərəfindən Qarabağ separatizminin tərkib elementi kimi məqsədyönlü törədilməsi, Azərbaycan daxilində siyasi intriqa və hakimiyyət ambisiyalarının torpaq itkilərimizdə mühüm faktor olması, AXC-Müsavat dövründə təsadüfi adamların hakimiyyətə gəlişinin dövlətçilik üçün dağıdıcı rol oynaması, Dağlıq Qarabağın azərbaycanlı əhalisinin faiz nisbətinin artırılması yönündə vaxtilə Ümummilli Lider Heydər Əliyevin apardığı strateji kursun əhəmiyyəti və ermənilərin əli ilə bu prosesin önlənməsinin Azərbaycana ziyan vurması və sair bu kimi dəyərli tarixi faktlar məruzədə geniş təhlil olundu.

### Azərbaycanın yeni dövrü

Prezident İlham Əliyev çıxışında ötən əsrin 90-cı illərinə ekskurs edərək, bunları deyib: "...O vaxt özünü demokrat adlandıran, hakimiyyəti qanunsuz yollarla zəbt etmiş satqın AXC-Müsavat hakimiyyəti imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Vətənpərvər insanlar, Heydər Əliyevi dəstəkləyən insanlar, ziyalılar Naxçıvana gedib soyuq, işıqsız şəraitdə, - hər on dəqiqədən bir işıqlar kəsilirdi, - Yeni Azərbaycan Partiyasını təsis etdilər. Artıq Azərbaycanın yeni dövrü başlamışdı. Məhz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı kimi ucaltdı və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırdı ki, onlar da eyni addımı atsınlar. Onlara hələ bir neçə ay lazım oldu və artıq gördə ki, Sovet İttifaqı çökür, ondan sonra bunu etdilər".

Cənab Prezidentin keçmiş hakimiyyətin kadrlar bazası barədə dedikləri xüsusi strateji əhəmiyyət və təsirə malikdir. Bu kontekstdə Azərbaycan xalqı dövlət başçısından təsirli mesaj aldı. Ölkə başçısı nitqində konkret adlar çəkməsə də, cəmiyyət AXC-Müsavat hakimiyyətinin kadrları barədə dedikləri fikirləri aydın şəkildə qavrayır və kimlərdən söhbət getdiyini bilir. İsa Qəmbər, Əli Kərimli, Pənah Hüseyn, İsgəndər Həmidov, İxtiyar Şirinov, Tofiq Qasımov və başqalarına aid olan eyhamlar Azərbaycan xalqını bir daha ayıq-sayıq olmağa çağırır. İnsanlar bir daha bilməlidir ki, hər təsadüfi adamların hakimiyyətə gəlişinə şərait və imkan verməl olduqca təhlükəli eksperimentdir və bir daha buna yol verməl olmaz.

### Biz bu tarixi yaddan çıxarmamalıyıq və gənclər bu tarixi bilməlidirlər

Prezident İlham Əliyev nitqində bütün bunlara toxunaraq o məşum illərin həqiqətlərini indiki nəsillərə çatdırmağın vacibliyini vurğuladı. Bildirdi ki, biz bu tarixi yaddan çıxarmamalıyıq və gənclər bu tarixi bilməlidirlər. Bugünkü reallıqları düzgün təhlil etmək, bu reallıqlara düzgün qiymət vermək üçün biz bu acı dövrü yaddan çıxarmamalıyıq.

Ölkə başçısının qeyd etdiyi kimi, cəmi birillik hakimiyyəti illərində AXC-Müsavat tandemi respublikanı uçuruma yuvarlatmışdı. Azərbaycan artıq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Respublikada xaos, anarxiya, hərc-mərclik və talançılıq hökm sürürdü.

Ölkənin dövlət katibinin "respublikada mafioz qüvvələr güclənir və onlar ölkəni, demək olar ki, idarə edir", baş prokurorun "iflic vəziyyətində olan dövlət aparatının özü rüşvətxorluqla məşğuldur və rüşvətxorluğa qarşı mübarizə də, məhz dövlət aparatından başlanmalıdır", ədliyyə nazirinin "hakimiyyətimiz dövründə rüşvətxorluq kommunist dövründəkindən də çoxalıb", Gömrük Komitəsi sədrinin "xalqın qabağında dayanan oğlanlar bu gün pulun qabağında dayana bilmir", Ali Məhkəmə sədrinin "Nazirlər Kabineti bu gün milyarderlərdən ibarətdir" kimi etiraflarında AXC-Müsavat hakimiyyətinin çirkin, antimilli əməlləri elə onların öz dilləri ilə tarixin daş yaddaşına yazılıb.

Gənclərimiz, xüsusilə, dünyagörüşünün darlığından, prosesləri dərindən analizetmə qabiliyyətinin zəifliyindən, məhz bu gün həmin "müxalifətçi-demokratlar"ın toruna düşənlər ölkə başçısının proqram xarakterli həmin çıxışını beyinlərinə yazmalıdırlar.

### Heydər Əliyevin humanistliyi onları layiq olduqları bu cəzadan xilas etdi

Prezident çıxış zamanı qeyd edib ki, Heydər Əliyevin humanistliyi onları layiq olduqları cəzadan xilas etdi: "Bunu deyəndə, əlbəttə ki, mən, ilk növbədə, AXC-Müsavat dövrünü qeyd edirəm. 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş o antimilli dəstə Azərbaycanı uçuruma aparırdı. Azərbaycan əldən gedirdi. Yenicə bərpa edilmiş müstəqillik əldən gedirdi, ölkədə xaos, anarxiya, talançılıq, oğurluq, özbaşınalıq, böhran hökm sürürdü".

Ölkə başçısı qaranlıq siyasi keçmişə malik şəxslərin adlarını çəkməsə də, AXC-Müsavat hakimiyyəti dövründəki səriştəsiz idarəçiləri - xəyanətkar bəyləri bir-bir ifşa etdi.

Doğrudan da, İsa Qəmbərin parlament spikeri, Pənah Hüseynin də baş nazir, isterik İsgəndər Həmidovun daxili işlər naziri, dönük, satqın və xəyanətkar karyerist Əli Kərimlinin dövlət katibi, avantürist və demaqoq Rəhim Qazıyevin müdafiə naziri, heç bir xarici dil bilməyən, öz ana dilində doğrudürüst danışa bilməyən Tofiq Qasımovun xarici işlər naziri, Gəncədə girov götürülən zaman öz prezidentinin həbsi haqqında order imzalayan İxtiyar Şirinovun respublikanın baş prokuroru vəzifələrini tutmaları tarixin və taleyin qədim və ulu xalqımız üzərində acı ironiyası idi.

Sözün həqiqi mənasında, demək olar ki, ölkə başçısı İlham Əliyev ötən əsrin 90-cı illərində ölkədə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyünün iribuynuzlularının, bu antimilli dəstənin üzvlərinin xarakteristikasını zərgər dəqiqliyi ilə verib.

### AXC-Müsavat cütlüyünün iribuynuzlularının, bu antimilli dəstənin üzvlərinin xarakteristikası

AXC-Müsavat hakimiyyətinin dövlət katibi Əli Kərimlinin 26 ildən artıq bir müddətdə milli maraqlarımıza xəyanət etməklə məşğul olması hamımıza yaxşı məlumdur. Cəmiyyətimiz də yaxşı bilir ki, bu adamın mayası xəyanətlə yoğurulub. AXC-Müsavat tandeminin birillik hakimiyyəti dövründə dövlət idarəçiliyində yüksək postda təmsil olunan Əli Kərimli baş verən bütün xəyanətlərdə və uğursuzluqlarda öz rolunu məharətlə oynadı.

Bu gün "demokrat" donuna bürünmüş bu komsomolçu anti-Azərbaycan dairələrlə işbirliyinə gedərək ölkəmizin əleyhinə, milli maraqlarımıza zərbələr vurmaq üçün dəridən-qabıqdan çıxsa da, heç nəyə nail ola bilmir.

Dövlətimizin başçısı çıxışında, çox haqlı olaraq, o zamankı dövlət katibi Əli Kərimlini siyasi dönüklükdə, flügerlikdə və satqınlıqda ittiham edib.

Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətdə olduğu müddət qısadır, amma ölkəni fəlakət astanasına apardığı dövrdür.

Əgər prezident Əbülfəz Elçibəy, bir çox hallarda, utopik pantürkizmə qapılsa da, əxlaqlı, şərəfli və vicdanlı insandırsa, onun komandasındakı şəxslərin tam əksəriyyəti barədə bu sözləri demək asan deyil.

Parlamentin spikeri olmuş İsa Qəmbər 11 il ərzində kiçik namizədlik dissertasiyasını müdafiə etməyi bacarmayan, mərhum akademik Ziya Bünyadovun "bunca bisavad adamın akademiyada hələ də işləməsinə görə özümdən utanıram" dediyi şəxs idi.

Baş nazir Pənah Hüseynov o adam idi ki, "İstiqlal" qəzetində "O, qarpızsatandır" ifadəsindən incimiş, hirslənmiş və qəzet redaksiyasına gedərək, Zərdüşt Əlizadədən təkzib tələb etmişdi: "Yalan yazmısan! Qardaşlarım qarpızsatanlardır. Mən balqabaq satmışam!" demişdi.

Müdafiə naziri, sabiq riyaziyyat müəllimi Rəhim Qazıyev "Şuşa alınsa, başıma güllə vuracağam" ifadəsi ilə tanınır. Halbuki bu adam nazir təyinatından az sonra prezident Elçibəyin yanında jurnalistlərə şəstlə demişdi: "Əgər döyüşdə olsam, əsgərlərimizi ölümə başıdik aparacağam". Bu dırnaqarası "igid" nazir anlamırdı ki, əsgərləri ölümə yox, qələbəyə aparardılar.

### Prezidentin kadr siyasəti ölkədə barış mühiti yaradır

Azərbaycan Prezidentinin həyata keçirdiyi son kadr və struktur islahatları yeni bir mərhələ kimi dəyərləndirilir. Çünki istər Nazirlər Kabinetinin strukturunda, istərsə də Prezident Administrasiyasında həyata keçirilən ciddi islahatlar nəticəsində Baş nazir, Administrasiyasının rəhbəri də daxil olmaqla, bir sıra kadrlar təqaüdə göndərildi və ya digər postlara təyin olundu. Rəhbər kadrların böyük hissəsi yeniləndi. Bu, bütövlükdə, hakimiyyət administrasiyasının yenilənməsi və keyfiyyətcə yeni mərhələyə başlamasının startıdır.

Prezident Administrasiyasının yeni strukturunda xeyli yeni adlarla bərabər, "köhnə qvardiya"nın təmsilçiləri də var.

Bir sözlə, Cənab İlham Əliyev təkcə öz komandasını yeniləmir, əslində, Azərbaycanı yeniləyir. Dövlət idarəçiliyində rolu olan strukturlar mahiyyət etibarilə dəyişdirilir. Nazirlər kabineti, Milli Məclis, Prezident Administrasiyası... İqtidarda ola-ola bu cür inqilabi addımlar atmaq böyük və yeni başlanğıcın davamıdır. Həm də ölkənin, xalqın maraqlarına uyğundur.

Bu baxımdan, Prezidentin sərəncam və fərmanları həm də ölkədə bir barış mühiti və stabillik yaradır.

Son 26 ildə, o cümlədən, 2003-cü ildən bu yana ölkədə hər zaman kadr dəyişiklikləri, kadr yenilənmələri, kadr və struktur islahatları həyata keçirilib, bu gün də belədir, bundan sonra da belə olacaq. Bu, davamlı bir prosesdir. Kimlərsə yola salınır, kimlinləsə yola davam edilir.

Hər zaman xidmətlərə, fəaliyyətə görə də minnətdarlıq bildirilib, uğurlar arzulanıb. Kimsə diqqətdən, qayğıdan kənarda qalmayıb, təbii ki, söhbət işində böyük qüsurlara, nöqsanlara yol verməyənlərdən, dövlətə, dövlətçiliyə daim sadiq olanlardan gedir.

Məlumdur ki, ölkəmizin idarəetmə sistemində həyata keçirilən struktur islahatlarının aparılmasında əsas məqsəd Azərbaycanın dayanıqlı iqtisadi və sosial inkişafını təmin etməkdir və kifayət qədər bəllidir ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində bilavasitə Azərbaycan vətəndaşlarının maraqları dayanır. Söz yox ki, Azərbaycan xalqı bunu görür və yüksək qiymətləndirir.

***Murad Mahmudov***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür*

# Heydər Əliyev, İKT və Azərbaycanın ərazi bütövlüyü hüququ

***Azərbaycan Prezidentinin səfərindən sonra İKT ölkəmizlə bağlı məsələləri daha ətraflı müzakirə etməyə, Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar daha təsirli qərarlar qəbul etməyə başladı. Təşkilata üzv ölkələrin xarici işlər nazirlərinin 1995-ci ildə Konakridə, 1996-cı ildə Cakartada keçirilmiş konfransları İKT Baş katibinin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məruzələrini müzakirə edərək, Ermənistanın təcavüzünü kəskin şəkildə pislədi. Hər iki konfransın qəbul etdiyi sənədlərdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili surətdə çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi tələbi qoyulmuşdu. Qeyd etmək lazımdır ki, Cakartada keçirilmiş XXIV konfransda, ilk dəfə olaraq, İKT-nin 1993-cü ildən etibarən Ermənistan-Azərbaycan münaqişəsinə dair qəbul etdiyi qətnamələrin adı dəyişdirilmiş, "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamə" əvəzinə, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə" adlandırılmışdı. Cakarta konfransı, həmçinin, ATƏT-in dövlət və hökumət başçılarının Lissabon Zirvə toplantısında ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ probleminin həllinə dair bəyanatını dəstəklədiyini bildirmişdi.***

İKT və onun qurumları ilə aparılan ardıcıl, məqsədyönlü işlərin nəticəsi olaraq, İslam İnkişaf Bankı (İİB) 1996-cı ildə Bakıda Beynəlxalq İnvestisiya Konfransı keçirməyi qərara aldı. Konfrans 1996-cı il sentyabrın 21-də keçirildi. Tədbirdə Bankın prezidenti və Direktorlar Şurasının üzvləri ilə yanaşı, 17 ölkədən gəlmiş 180-dək iş adamı da iştirak edirdi. Konfransda çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev ümidvar olduğunu bildirmişdi ki, İİB-in Azərbaycanda ilk dəfə keçirdiyi yüksək səviyyəli, geniş tərkibli konfrans bankın bütün müsəlman ölkələrindəki, o cümlədən, Azərbaycandakı fəaliyyətinə güclü təkan verəcəkdir. O demişdi: "Azərbaycan tarixi köklərinə, adət-ənənələrinə dini mənsubiyyətinə görə, islam ölkəsidir və islam ölkələri ilə həm coğrafi nöqteyi-nəzərdən yaxın olduğuna görə, həm də adət-ənənələrimiz bir-birinə bənzədiyinə görə, daha da səmərəli əməkdaşlıq etmək imkanına malikdir. İslam ölkələri dünyanın elə məntəqələrində yerləşirlər ki, onların iqlimi də, torpaqları da, təbiəti də, insanları da, insanların xasiyyəti, adət-ənənələri də bir-birinə bənzərdir, bir-biri ilə bağlıdır. Bunlar hamısı ölkələrimiz arasında daha sıx əlaqələr saxlanmasını tələb edir və bunun üçün şərait yaradır... Mən islam ölkələrinin iş adamlarının, özəl sektorunun Azərbaycana gəlməsini arzulayıram və sizi ölkəmizə dəvət edirəm. İslam İnkişaf Bankının burada daha geniş fəaliyyət göstərməsini arzu edir, ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra da belə olacaqdır."

Konfransın başa çatmasından bir müddət sonra, 1997-ci ilin yanvarında İİB Direktorlar Şurası Ələt-Hacıqabul avtomobil yolunun yenidən qurulması layihəsinin həyata keçirilməsi üçün Azərbaycana 13,144 mln. ABŞ dolları məbləğində güzəştli kreditin ayrılması haqqında qərar qəbul etdi. Ümumiyyətlə, bank müxtəlif illərdə Azərbaycana ümumi məbləği 74 mln. dollardan artıq olan güzəştli kreditlər təqdim etmiş, qaçqın və məcburi köçkünlərə humanitar yardımların göstərilməsi, məktəblərin, istehsal müəssisələrinin, su kanallarının və yolların tikilməsi, sosial-iqtisadi inkişaf layihələrinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanması üçün ümumi məbləği 5 mln. ABŞ dollarınadək olan təmənnasız maliyyə vəsaiti ayırmışdı.

1997-ci ildə, İKT-nin tarixində ilk dəfə olaraq, bir il ərzində dövlət və hökumət başçılarının həm növbədənkənar, həm də növbəti konfransları keçirildi. 1997-ci il martın 23 -də Pakistanın paytaxtı İslamabadda keçirilmiş növbədənkənar konfransda qəbul edilmiş bəyannamədə Azərbaycan tərəfinin təklifləri də öz əksini tapmışdı. Sənədin 10-cu bəndində Ermənistanın Azərbaycana qarşı təcavüzü ciddi şəkildə pislənmiş və işğal olunmuş ərazilərin azad edilməsinə dair tələb qoyulmuşdu.

İKT-nin VIII Zirvə toplantısı 1997-ci il dekabrın 9-11-də İranın paytaxtı Tehranda çağırılmışdı. Toplantıda 53 ölkənin nümayəndələri iştirak edirdi. Azərbaycan nümayəndə heyətinə dövlət başçısı Heydər Əliyevin özü rəhbərlik edirdi. Toplantı müddətində Heydər Əliyev islam ölkələrinin dövlət və hökumət başçıları, nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri ilə 25-dən çox görüş keçirmiş, Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri onların diqqətinə çatdıraraq, onları münaqişənin aradan qaldırılması üçün Ermənistana təsir göstərməyə çağırmışdı. Görüşlərdə, həmçinin, ikitərəfli əlaqələrin genişləndirilməsi məsələləri də müzakirə edilmişdi.

Sammitdəki çıxışında Heydər Əliyev dövlət və hökumət başçılarını daha fəal əməkdaşlıq etməyə dəvət etmiş, Ermənistanla münaqişənin ölkəmizə vurduğu ziyandan ətraflı bəhs edərək, İKT rəhbərliyini və üzv dövlətləri Azərbaycanın haqq işinə dəstək verməyə çağırmışdı. İşğalçı Ermənistanın Amerika, Avropa və Rusiyadan mənəvi, siyasi, iqtisadi və hərbi yardım aldığını, 1993-1996-cı illərdə Rusiyanın Ermənistana, təmənnasız olaraq, 1 mlrd. dollar dəyərində silah-sursat və hərbi texnika göndərdiyini bildirən Azərbaycan Prezidenti vurğulamışdı ki, müsəlman dövlətlərinin həmrəyliyinə, mənəvi və maddi köməyinə Azərbaycan xalqının böyük ehtiyacı var. Dövlət başçısı öz nitqində Ermənistanın təcavüzü nəticəsində yerlərindən didərgin düşmüş, çadırlarda ağır vəziyyətdə yaşayan bir milyondan artıq qaçqına və məcburi köçkünə göstərilən humanitar yardıma görə Türkiyəyə, İrana, Səudiyyə Ərəbistanına, Pakistana, Misirə, Küveytə və Birləşmiş Ərəb Əmirliklərinə dərin minnətdarlığını bildirmiş, İKT-yə üzv olan digər dövlətlərin başçılarından xahiş etmişdi ki, bu sahədə köməklərini artırsınlar. Tehran Zirvə konfransı, bilavasitə Azərbaycana aidiyyəti olan iki qətnamə qəbul etdi.

Heydər Əliyevin təkidli səyləri nəticəsində adı dəyişdirilərək "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnamədə qeyd edilirdi ki, İKT-nin üzvü olan dövlətlər Ermənistana silah və hərbi sursat verməkdən qəti imtina etməli, onların ərazisindən bu cür yüklərin tranziti üçün istifadə olunmasına yol verməməlidirlər. Sənəddə, həmçinin, BMT Təhlükəsizlik Şurasının Ermənistanın təcavüzü ilə bağlı qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrin yerinə yetirilməsi üçün daha təsirli addımlar atılması tövsiyə olunurdu. Nəticədə, VII Kasablanka İslam Sammitində (1994) qəbul edilmiş qətnamə ilə müqayisədə VIII Tehran İslam Sammitinin (1997) qətnaməsi daha geniş və təsirli olmuşdu. Zirvə toplantısının qəbul etdiyi digər qətnamə üzv dövlətləri və İslam Təsisatlarını Azərbaycan hökumətinə və xalqına lazımi iqtisadi və humanitar yardım göstərməyə çağırırdı. Beləliklə, Tehran Zirvə görüşü Azərbaycan diplomatiyasının yeni uğurları ilə əlamətdar oldu. Lakin konfransın gedişi zamanı jurnalistlərə müsahibə verən Azərbaycan Prezidenti iş görmək üçün İKT-nin daha çox imkanlara malik olduğunu söyləyərək, təəssüflə qeyd etmişdi ki, bu təşkilat ancaq qətnamələr qəbul edir: "Üç il bundan öncə, Mərakeşdə bir qətnamə qəbul edildi, Ermənistan təcavüzkar kimi pislənildi, məhkum olundu və bu, dünyaya elan edildi. Əlbəttə, beynəlxalq aləmdə ictimai rəy üçün bunun əhəmiyyəti var. Ancaq hesab edirəm ki, bu təşkilat səsini daha da gur çıxara bilər və tələb edə bilər ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal çıxarılsın. Müsəlmanlara qarşı belə təcavüz etməsinlər. İslam ölkələri bir olsalar, bunu edə bilərlər."

Prezident seçildikdən sonra Heydər Əliyevin həyata keçirdiyi xarici siyasət, xüsusən, İKT və islam ölkələri ilə sıx əməkdaşlıq əlaqələri yaratması, onu tez bir zamanda islam dünyasının liderinə çevirmişdi. İKT-nin VII Sammitinin keçirildiyi günlərdə islam ölkələri ilə ikitərəfli əməkdaşlığı inkişaf etdirmək və genişləndirmək məqsədilə həmin ölkələrin başçıları və nümayəndələri ilə çoxsaylı görüşlər keçirərək, onlarla sıx şəxsi münasibətlər yaratmağa nail olmuşdu. O, münasibətlərin əhəmiyyətindən danışarkən, qeyd edirdi ki, Azərbaycan Respublikasının Prezidenti kimi mən öz qardaşlarımla, müsəlman dövlətlərinin başçıları ilə şəxsi münasibətlər yaratmağa, aramızda həmrəyliyi möhkəmlətməyə böyük əhəmiyyət verirəm. İKT sammitində çıxışı göstərdi ki, Onu təkcə vətəni Azərbaycanın problemləri deyil, islam dünyasının, bütün bəşəriyyətin problemləri dərindən düşündürürdü. Öz çıxışında, O, Ermənistanın təcavüzü nəticəsində, Azərbaycanın üzləşdiyi müsibətləri dünya ictimaiyyətinə çatdırmaqla yanaşı, digər müsəlman xalqlarının problemlərinin də Onu narahat etdiyini dilə gətirmişdi: "Öz çıxışımda mən xalqımın ağrı-acılarından və iztirablarından danışdım. Bununla yanaşı, Bosniya və Herseqovinada, Kəşmirdə, Fələstində, dünyanın bütün qaynar nöqtələrində milliyyətindən və dinindən asılı olmayaraq, başqa xalqların da dərdi və iztirabları məni narahat edir. Bosniya və Henseqovinada son vaxtlar yaranmış vəziyyət xüsusi təşviş və ürək ağrısı doğurur. Orada qırğın və dağıntılar dəhşətli miqyas almışdır. Ona görə də biz qanlı qırğının dərhal dayandırılması üçün və bu münaqişənin ədalətlə aradan qaldırılmasına nail olmaq üçün bütün imkanlarımızdan istifadə etməliyik, var qüvvəmizi sərf etməliyik."

Eyni zamanda, O, əmin idi ki, heç bir ölkə üzləşdiyi problemləri, xüsusən, separatizm və milli təhlükəsizliklə bağlı problemlərini təkbaşına beynəlxalq birliyin dəstəyi olmadan həll edə bilməz: "Bu gün dünyada mürəkkəb və ziddiyyətli proseslər getməkdədir: viranedici qlobal müharibənin qarşısının alınması, dünyanın təhlükəsizliyinin yeni təməlinin qoyulması kimi müsbət meyillər regional münaqişələrin artması ilə, yırtıcı millətçiliklə və dövrün başqa bəlaları ilə qarşılaşır. Bizim ölkələrimiz bu proseslərin qaynağındadırlar və biz beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə, sülh və tərəqqi qüvvələrinin qələbəsinə layiqli yardım etməliyik, öz səylərimizi göstərməliyik. Bunun naminə biz müsəlman ölkələrinin inkişafına mane olan əngəlləri aradan qaldırmalı, bir-birimizə yardım əli uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməliyik".

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*



# YAP Binəqədi rayon təşkilatında tədbir keçirilib

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında ölkə Prezidenti İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş mərasimdə çıxışı zamanı gənclərə ünvanlanan məsələlərlə bağlı qarşıya qoyulan vəzifələrin müzakirəsinə həsr olunmuş tədbir keçirilib. Tədbir dövlət başçısı İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş mərasimdəki çıxışından bəhs edən videoçarxın nümayiş etdirilməsi ilə başlanıb.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövründə əldə edilən mühüm uğurlardan biri kimi, ölkəmizin təhsil sisteminin inkişafına mühüm töhfələr vermiş BDU-nun yaradılması olduğunu bildirib. R.Göyüşovun sözlərinə görə, 1990-cı illərin əvvəlində yenicə müstəqillik qazanmış ölkəmiz ciddi problemlərlə - xaosla və vətəndaş müharibəsi ilə üzləşib: "1993-cü ilin oktyabr ayında xalqın yüksək səs çoxluğu ilə ölkə Prezidenti seçilən Ulu Öndər Heydər Əliyev uğurlu xarici və daxili siyasətlə, dərin islahatlarla dövlətimizin və xalqımızın əmin-amanlığını, inkişafını təmin edə bildi. Dövlət başçısı İlham Əliyev BDU-nun 100 illik yubiley mərasimində, məhz bu məsələlərə toxunaraq, bütün gəncləri ayıq-sayıq olmağa və tariximizi daha yaxşı öyrənməyə oxumağa, təhlil etməyə səsləyib".

Millət vəkili Kamaləddin Qafarov çıxışında ölkə Prezidenti İlham Əliyevin yubiley mərasimindəki çıxışı zamanı səsləndirilən olduqca mühüm fikirlərə diqqət yönəldib, onları gənclərin nəzərinə çatdırıb: "Tarixin bütün dövrlərində xalqımız gərgin ictimai-siyasi proseslərlə qarşılaşıb. Çox təəssüflər olsun ki, xalqımıza qarşı xəyanəti təkcə ölkəmizi istəməyən xarici qüvvələr deyil, həmçinin, Azərbaycanda hakimiyyətdə olan səriştəsiz hakimiyyət nümayəndələri ediblər. Xalqımız, gənclərimiz o insanlara qarşı öz mövqeyini daim ortaya qoyub, bundan sonra da qoymalıdır. Bu gün ölkəmizin müstəqil, azad və firavan şəraitini pozmağa heç bir qüvvəyə imkan verilməməlidir. Bəzi xarici ölkələr Azərbaycanı öz tabeçiliyinə, öz təsiri altına almaq istəyir. Lakin dövlət başçısının qətiyyəti və uğurlu xarici siyasəti qarşısında aciz vəziyyətə düşürlər. Məhz bu baxımdan, ölkəmizə müxtəlif qarayaxmalar edərək, ciddi problemlər yaratmağa, parçalamağa və bölməyə cəhd göstərirlər".

Tədbirdə YAP Binəqədi rayon təşkilatının gənc fəalları, Bakı Dövlət Universitetinin tələbəsi Nəzrin İmanova, Zəhra Əliyeva çıxış edərək, bildirib ki, YAP-ın dövlətçilik naminə atdığı hər bir addımını, səmərəli fəaliyyətini dəstəkləyir və onun bütün uğurlarına sevinirlər. Bildiridib ki, yubiley tədbirində ölkə Prezidenti universitetin yarandığı dövrdən bu günə qədər keçdiyi çətin və şərəfli yoldan, nəinki ölkəmizin, həmçinin, universitetin inkişafı naminə bu yolda silinməz iz qoyan Ulu Öndər Heydər Əliyevin dəstəyindən söz açdığını, tariximizlə bağlı bir çox maraqlı faktları xatırlatdığını və tələbələrə öz tövsiyələrini verdiyini diqqətə çatdırıb.

***ZÜMRÜD BAYRAMOVA***

## ELAN

**ADPU-nun Kimya müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Ziyadzadə Toğrul Murad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADPU-nun İbtidai sinif müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Talıbova Mədinə Tahir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

* * *

**ADİU-nun "Rus-iqtisad məktəbi" fakültəsinin III kurs tələbəsi Nəsirli Nərmin Natiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


# səs

Son səhifə 7 dekabr


# Suraxanıda bələdiyyə seçkiləri ilə əlaqədar qadın seçicilərlə görüş keçirilib





Dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatında təbliğat-təşviqat kampaniyası çərçivəsində qadın seçicilərlə görüş keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov rayon təşkilatı tərəfindən görülən işlər barədə geniş məlumat verib bələdiyyə seçkilərinin mühüm əhəmiyyətini qeyd edib, eyni zamanda, Ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətinin nəticəsi olaraq, qadınların idarəetmə orqanlarında və seçki proseslərindəki iştirakının durmadan artmaqda olduğunu qeyd edib.

Milli Məclisin deputatı Sevinc Fətəliyeva çıxışında, Azərbaycanda ötən dövr ərzində, bələdiyyə institutunun formalaşdığını və bu seçki prosesində də qadınların rolunun əvəzsiz olduğunu qeyd edib və qarşıdan gələn bələdiyyə seçkilərində qadın namizədlərin say çoxluğunun iş prosesinə müsbət təsir göstərəcəyinə əminliyini bildirmiş və Yeni Azərbaycan Partiyası namizədlərə uğurlar arzulamışdır.

Daha sonra YAP Suraxanı rayon təşkilatı qadınlar şurasının sədri Zəkiyyə Musayeva çıxış edərək, respublikamızda dövlət-qadın siyasəti, Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə əsasını qoyduğu ənənələrin ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini, bunun nəticəsi olaraq, dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində də layiqli qadın namizədlərin sayının kifayət qədər çox olduğunu və bu yöndə YAP Suraxanı rayon təşkilatı qadınlar şurası üzvlərinin də yaxından iştirak etdiklərini nəzərə çatdırmışdır.

Görüşdə Qaraçuxur qəsəbə sakini, torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş, milli qəhrəman Cavanşir Rəhimovun anası Lalə xanım, Hövsan qəsəbə sakini, 20 Yanvar şəhidi Cəbrayıl Xanməmmədovun həyat yoldaşı Şövkət xanım, bələdiyyəyə namizəd Cəmilə Ağayeva, gənc seçicilər adından Yaqut Ağayeva Azərbaycanın və regionun ən güclü siyasi partiyası olan YAP-ın yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazandığını və ölkə Prezidenti, partiyanın Sədri İlham Əliyevin Sədrliyi ilə dövlətimizin inkişafı və xalqımızın əmin-amanlıq içində yaşaması uğrunda mühüm töhfələr verildiyini vurğulamış, bütün bunların da xalqımızın partiyamızın namizədlərini dəstəkləyəcəyinə təminat verdiyini qeyd etmişlər.

***ZÜMRÜD BAYRAMOVA***

# Quba rayonunda ağacəkmə aksiyası keçirilib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin "Nəsimi İli" elan edilməsi çərçivəsində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bir gün ərzində respublika ərazisində 650 min ağac əkmək təşəbbüsününə Quba rayonu da qoşulub. Dekabrın 6-da YAP Quba rayon təşkilatı Quba rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Quba rayonunda da ağacəkmə aksiyası keçirilib. Aksiyada YAP Quba rayon təşkilatının sədri Yusif Abidov, YAP fəalları, ictimaiyyət nümayəndələri, rayonun aktiv gəncləri, eləcə də, ilk dəfə səs verən gənclər iştirak ediblər. Rayon təşkilat sədri Y.Abidov bildirib ki, Nəsiminin poetik irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir. Nəsimi poeziyasının fəlsəfəsi təbiət gözəlliklərinin, saf bəşəri duyğuların, şəxsiyyət azadlığının tərənnümü üzərində qurulub və Azərbaycan ədəbiyyatının daha da zənginləşməsində misilsiz rol oynayıb. Mütəfəkkir şairin yaradıcılığında insan və təbiət münasibətlərinin harmoniyası xüsusi yer tutduğuna görə, onun xatirəsinin bu kontekstdə genişmiqyaslı, yaddaqalan tədbirlə əbədiləşdirilməsi ölkəmizin yaşıl, çiçəklənən diyara çevrilməsinə, ətraf mühitin sağlamlaşdırılmasına verilən dəyərli töhfədir.

***NƏZAKƏT***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**